QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 195 (5426) 26 **oktyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymэti 40 qəpik**

# Yüksələn xətlə inkişaf edən Azərbaycan- Türkiyə münasibətləri

*Prezident İlham Əliyevin Türkiyəyə hər səfəri iki ölkə arasında münasibətlərdə yeni bir səhifə açır*




Səh 2




Əli Həsənovun Xocalı soyqırımı haqqında elmi məqaləsi Rusiyanın nüfuzlu "Science and world" jurnalında dərc edilib

3

Naxçıvan şəhərində yeni istehsal müəssisəsi fəaliyyətə başlayıb



8

Novruz Məmmədov: "Bu gün dünya birliyinin ən çox ədalətə ehtiyacı var"



5

Nazirlər Kabinetində qaçqınların statusu haqqında qanunvericiliyə dəyişiklik edilməsi ilə bağlı iclas keçirilib



4

Siyavuş Novruzov: "YAP-da hesabat-seçki konfransları yekunlaşmaq üzrədir"



4

Ermənilərin "AGOS" qəzeti Əli Kərimliyə havadarlıq edir



14

12

Uğursuzların yeni mitinq ağrısı: ziyanlı ilə yalançının davası



6

"Houston Chronicle": Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır




16

Azərbaycanın iki boksçusu Avropa çempionatının yarımfinalına yüksəlib



# Yüksələn xətlə inkişaf edən Azərbaycan- Türkiyə münasibətləri

## *Prezident İlham Əliyevin Türkiyəyə hər səfəri iki ölkə arasında münasibətlərdə yeni bir səhifə açır*

***Məlum olduğu kimi, oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə D-8 Zirvə görüşündə xüsusi qonaq qismində iştirak etmək üçün İstanbula gəlib.***




Bu gün Azərbaycan ilə Türkiyə arasında olan səmimi və dostluq münasibətləri beynəlxalq aləmdə nadir hadisədir. Mürəkkəb geosiyasi reallıqda etibarlı strateji tərəfdaşlar kimi, münasibətlərin daimi inkişafında və daha da gücləndirilməsində əzmkarlıq nümayiş etdirilibdir. Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamı, Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" aforizmi iki xalqın bir-birinə yaxınlıq dərəcəsinin böyüklüyünü göstərir.

Azərbaycan-Türkiyə münasibətlərinin tarixi böyükdür. 1918-ci ildə Nuru Paşanın komandanlığı ilə Türk Qafqaz İslam Ordusunun Bakını bolşevik-daşnak silahlılarından xilas etməsi Azərbaycan üçün önəmli tarixi hadisələrdən biri olubdur. Azərbaycan xalqı bu köməyi yüksək qiymətləndirib və Ümummilli Lider Heydər Əliyevin dediyi kimi, "Türk ordusunun Azərbaycana, Bakıya gəlməsi, Azərbaycanı daşnakların təcavüzündən xilas etməsi hər bir azərbaycanlının qəlbində yaşayır. Azərbaycan xalqı həmin ağır dövrdə türk xalqının ona göstərdiyi köməyi heç vaxt unutmayacaqdır". Müasir Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir. Azərbaycan bizim qardaşımızdır. Heç nəyə baxmayaraq, ona yardım etmək borcumuzdur" sözləri qardaş ölkənin Azərbaycana olan tükənməyən hörmətinin bariz nümunəsidir.

Müasir geosiyasi şəraitdə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi ölkəmizin xarici siyasətinin mühüm tərkib hissəsidir. Hər iki ölkənin dövlət və hökumət başçılarının, eləcə də siyasi, iqtisadi, ticarət, elm, təhsil, mədəniyyət və digər sahələr üzrə aidiyyəti qurumlarının rəhbərlərinin qarşılıqlı səfərləri ikitərəfli əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynayıb və bütün sahələrdə əlaqələr uğurla inkişaf edərək, ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyəyə qalxmasına səbəb olub.

Müstəqilliyin ilk illərində Türkiyə iki qardaş ölkə arasında qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərini əsas tutaraq, dövlət quruculuğu yolunda respublikamızın səylərini daim dəstəkləməklə hərtərəfli əlaqələrin inkişafına geniş yardım göstərib. Azərbaycanın dünya birliyinə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında, ümumiyyətlə, ölkəmizin siyasi-iqtisadi və elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə dövləti ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi əhəmiyyət verən Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra bu istiqamətdəki kursun yüksələn xətt üzrə inkişafını təmin etdi. 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"nin xarici neft şirkətlərinin konsorsiumunda "Türk Petrolları" şirkətinin təmsil olunması Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın inkişafının ilk əsas təzahürü idi. Ümummilli Lider Heydər Əliyevin 1997-ci il mayın 5-8-də Türkiyəyə rəsmi səfəri zamanı keçirilən görüşlərdə ölkəmizin Türkiyə ilə münasibətlərin daha da inkişafına xüsusi əhəmiyyət verdiyi göstərildi. Belə ki, səfər çərçivəsində "Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında Bəyannamə", eləcə də, iki ölkə arasında münasibətləri yüksək səviyyəyə qaldırmış və müxtəlif sahələri əhatə edən, ümumilikdə 9 sənəd imzalandı.

Azərbaycan regionda həyata keçirilən qlobal iqtisadi layihələrin həyata keçirilməsində Türkiyənin yaxından iştirakına daim xüsusi diqqət yetirir. Avropa ilə Şərq ölkələri arasında nəqliyyat-kommunikasiya əlaqələrinin yaradılması sahəsində mühüm əhəmiyyət kəsb edən "Avropa-Qafqaz-Asiya Transqafqaz" Nəqliyyat Dəhlizi proqramının dəstəyi ilə 1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın iştirakı ilə tarixi "Böyük İpək Yolu"nun bərpasına dair Bakıda keçirilmiş beynəlxalq konfrans Azərbaycanla Türkiyə arasında strateji tərəfdaşlığın genişlənməsinə yeni stimul verdi. Həmçinin, Xəzərin enerji resurslarının dünya bazarlarına nəql olunması sahəsində Azərbaycan ilə Türkiyə arasında davamlı əməkdaşlığın genişləndirilməsi hər iki dövlətin regionda siyasi-iqtisadi və strateji maraqlarının təmin edilməsinə xidmət edir.

Xəzər regionunda fəal mövqeyi ilə seçilən və Azərbaycanın bütün məsələlər üzrə müttəfiqi hesab edilən Türkiyə dövləti əsas diqqətini respublikamızın neft ehtiyatlarının xarici bazarlara marşrutunu üzərinə cəmləşdirib. Bu məqsədlə də, Türkiyə hökuməti Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Neft Kəməri marşrutunu irəli sürüb və kəmərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı bir sıra təkliflərlə çıxış edib. Həmçinin, 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbulda keçirilmiş Zirvə toplantısı çərçivəsində XX əsrin çox mühüm layihəsi hesab edilən və mübahisəli müzakirələrə səbəb olan "Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri vasitəsilə Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən xam neftin nəql edilməsinə dair saziş"in Azərbaycan, Gürcüstan, Türkiyə və ABŞ prezidentləri tərəfindən imzalanması region ölkələrinin strateji əməkdaşlığı və Avropaya inteqrasiyası sahəsində mühüm addım oldu. Eyni vaxtda, adıçəkilən dövlətlərin prezidentləri tərəfindən bu qlobal layihəni müdafiə edən İstanbul Bəyannaməsinin qəbul edilməsi Azərbaycan dövlətinin, xüsusilə, Ümummilli Lider Heydər Əliyevin yeni neft strategiyasının həyata keçməsi istiqamətində, eləcə də, Türkiyə dövləti ilə dostluğun və əməkdaşlığın daimi olmasını təsdiq edən çox əhəmiyyətli bir sənəd oldu. Ümummilli Lider Heydər Əliyevin xarici siyasət kursunu novatorcasına, dinamik şəkildə və çox uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev qardaş Türkiyə dövləti ilə münasibətləri yüksələn xətt üzrə inkişaf etdirərək, bu münasibətlərin strateji müttəfiqlik səviyyəsinə qalxmasında əhəmiyyətli rol oynadı. Belə ki, Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında Prezident İlham Əliyevin 2004-cü il aprelin 13-15-də dövlət başçısı kimi ilk rəsmi səfəri zamanı iki ölkə arasında Birgə Bəyanat, mülki aviasiya və mədəniyyət sahələrində əməkdaşlığa dair protokollar, ümumilikdə isə, 5 mühüm sənəd imzalandı. 2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan limanında Şərq-Qərb Enerji Dəhlizinin mühüm qolunu təşkil edən və Ulu Öndər Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin təntənəli açılış mərasimi keçirildi. Ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin dinamik şəkildə inkişafının göstəricisi olan qlobal iqtisadi layihələr - Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri və Bakı-Tbilisi-Qars dəmir yolu layihələri regionda sülhün və təhlükəsizliyin təmin olunmasına öz töhfəsini verməklə yanaşı, xalqlarımızın rifah halının yaxşılaşdırılması baxımından da böyük əhəmiyyət kəsb edir.

Bu günədək "bir millət, iki dövlət" prinsipi əsasında inkişaf edən münasibətlərin yüksək səviyyədə olduğunu bildirən Azərbaycan Prezidenti İlham Əliyev hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərlərinin ikitərəfli siyasi və iqtisadi əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynadığını bildirərək, qeyd edib ki, "Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələr çox uğurla inkişaf edir. Bu əlaqələr dostluq-qardaşlıq əsasında qurulubdur. Bizim çox zəngin birgə tariximiz və ortaq dəyərlərimiz vardır. Bu gün Türkiyə ilə Azərbaycan arasında əlaqələr bu möhkəm təməl əsasında qurulur".

2011-ci il iyulun 27-də Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri zamanı Türkiyə-Azərbaycan əlaqələrinin hazırda ən yüksək səviyyədə olduğunun bir daha şahidi olduq. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın birgə mətbuat konfransı zamanı söylədikləri fikirlər bunu bir daha təsdiq edir. Azərbaycan Prezidenti İlham Əliyev bu əlaqələrin strateji xarakter daşıdığını, dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını bildirərək, qeyd edib ki, "Bizi birləşdirən həm tarixi köklər, həm mədəni əlaqələr, bizim keçmişimiz və bugünkü siyasi maraqlarımızdır. Biz çox şadıq ki, Türkiyə-Azərbaycan əlaqələri sürətlə inkişaf edir". Bununla yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları ilə əlaqədar danışıqların son durumu haqqında müzakirələrin aparıldığını qeyd edən dövlət başçısı İlham Əliyev Türkiyəyə bu məsələ ilə bağlı tutduğu mövqeyə görə, Azərbaycan xalqının və dövlətinin minnətdar olduğunu və bunu çox yüksək qiymətləndirdiyini bildirib.

Baş nazir Rəcəb Tayyib Ərdoğan da Dağlıq Qarabağ məsələsində Türkiyənin hər zaman Azərbaycanın yanında olduğuna diqqəti çəkərək deyib: "Dağlıq Qarabağ mövzusundakı mövqeyimiz, düşüncəmiz və mübarizəmiz eynidir. Azərbaycan üçün Dağlıq Qarabağ mövzusu necə bir qanayan yaradırsa, bilinməlidir ki, bizim üçün də elə qanayan bir yaradır. Bundan fərqli bir düşüncə bizdə, əsla ola bilməz. Bu məsələni də sona qədər təqib edirik və bundan sonra da təqib etməkdə davam edəcəyik".

Beləliklə, iki ölkə arasında münasibətlərin xarakteri və yüksək səviyyəsi Azərbaycan-Türkiyə əlaqələrinin sarsılmazlığından və dərin tarixi köklərə söykənməsindən xəbər verir. Bu qardaşlıq münasibətlərinin bundan sonra da inkişaf etməsi və güclənməsi üçün tərəflərin güclü iradəsi və istəyi var.

**RƏFİQƏ KAMALQIZI**

## *Rəsmi xronika*

Azərbaycan Prezidenti İlham Əliyev Avstriyanın Federal Prezidenti Aleksander Van der Bellenə təbrik məktubu ünvanlayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi Si Cinpinə təbrik məktubu ünvanlayıb.

* * *

Prezident İlham Əliyev oktyabrın 25-də "Goranboy rayonunun Dəliməmmədli-Muzdurlar-Qırıqlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, on beş min nəfər əhalinin yaşadığı 15 yaşayış məntəqəsini birləşdirən Dəliməmmədli-Muzdurlar-Qırıqlı avtomobil yolunun tikintisi məqsədi ilə 2017-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 5,7 milyon manatı "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə ayrılıb.

# Əli Həsənovun Xocalı soyqırımı haqqında elmi məqaləsi Rusiyanın nüfuzlu "Science and world" jurnalında dərc edilib

***Rusiyada çap olunan nüfuzlu "Science and world" jurnalında Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun "Xocalı soyqırımı: Səbəbləri, nəticələri və beynəlxalq aləmdə tanınması" adlı elmi məqaləsi ingilis dilində dərc edilib.***






ISSN 2308-4804. Science and world. 2017. № 8 (48).

Political sciences
Политология

UDC 32

THE KHOJALY GENOCIDE: CAUSES, CONSEQUENCES AND INTERNATIONAL RECOGNITION

A. Hasanov, Doctor of Historical Sciences, Professor,
Head of International Relations and Foreign Policy Department
The Academy of Public Administration
under the President of the Republic of Azerbaijan (Baku), Azerbaijan

*Abstract. The territorial claims and occupation of Armenia against Azerbaijan from the second half of the 80s of the XX century, including ethnic cleansing against Azerbaijanis in 1988-1993, state terrorism and genocide policy are studied according to the scientific sources. Especially, crimes committed during the occupation of Khojaly by the Armenian armed forces on February 26, 1992, as well as the acts of vandalism against civilians are widely analyzed according to the foreign sources. In addition, the genocide committed by Armenians in Khojaly at the end of the XX century is regarded as one of the most serious crimes against humanity. Also, the article examines the history of this strategically important area in the Nagorno-Karabakh region of Azerbaijan and indicates the reasons of the importance of Khojaly. In addition, informing world community about the Khojaly genocide, the activites for getting political and legal assessment for it, as well as the recognition of Khojaly tragedy as genocide in the international arena are widely studied in the article.*

*Keywords: aggression of Armenia against Azerbaijan, territorial claims, ethnic cleansing, terror, genocide, occupation.*

**Territorial claims and military aggression of Armenia against Azerbaijan in late 20th century**

In the late 1980s, with the help of their patrons in the near and far abroad, the Armenians again took advantage of the situation to implement their "Great Armenia" idea and laid territorial claims to the Nagorno-Karabakh region of Azerbaijan. Each time territorial claims to Nagorno-Karabakh were put forward from the outside, incited by the Armenian propaganda and pressure. When the events of 1988 just started, in an attempt to aggravate the situation and mislead the public opinion, the Armenian politicians and their patrons started to organize strikes and rallies and halted the activity of enterprises in Khankandi and Yerevan in accordance with a long-term deliberate plan to annex Nagorno-Karabakh to Armenia under the pretext of economic backwardness of the region.

However, the ensuing events proved that this false claim about the socio-economic backwardness of Nagorno-Karabakh laid down by the Armenian politicians and their patrons in the center was just a pretext, and that the primary goal behind this campaign was Armenia's territorial claims against Azerbaijan. The Armenia-Azerbaijan ethnic hostilities escalated in the second half of the year when the Azerbaijani community of Nagorno-Karabakh was brutally attacked. So, in late August and early September, the Armenians attacked Khojaly and Karkijahan. On 18 September, nearly 15,000 Azerbaijanis were forcibly expelled from Khankandi by the Armenians. Their homes were burned down [22, p. 57].

In such a tense situation in Nagorno-Karabakh, on 1 December 1989, the Supreme Soviet of the Armenian SSR made an unconstitutional decision to annex Nagorno-Karabakh, grossly violating sovereignty of Azerbaijan [3, c. 130]. Very serious and inexcusable mistakes and pro-Armenian policy of the Soviet leadership led to the aggravation of the situation in late 1990 – early 1991 when Armenian aggression gathered pace in Nagorno-Karabakh and Azerbaijan's regions bordering with Armenia.

Starting from the early 1992, the Armenian army one by one occupied last residential areas of the Azerbaijanis in the Nagorno-Karabakh region. On 12 February, the Armenian armed forces occupied Malibayli and Gushchular villages in Shusha. From 13 to 17 February, the Armenians attacked Garadali village in Khojavand district and captured 118 people (children, women, elders), shot down 33 people, and buried the murdered and wounded local residents in wells. Sixty-eight of the hostages were killed with extreme cruelty, while 50 were rescued, with 18 of them later dying because of injuries. Torture of captives, extremely cruel, barbarous treatment of them, beheading, burial alive, forcible tooth extraction, forced famine – are serious crimes against humanity. In Garadagli village, four members of each of two families were killed, 42 families lost their breadwinner, about 140 children became orphans. Every 10th villager was killed in this village (a total of 91 people), which suffered genocide in the true sense of the word [22, p. 93].

© Hasanov A. / Гасанов А., 2017

123

AZƏRTAC xəbər verir ki, məqalədə son iki əsrdə azərbaycanlılara qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasəti geniş təhlil edilir. Müəllif zəngin xarici mənbələrə və tarixi faktlara əsaslanan məqaləsində göstərir ki, son iki əsrdə xalqımıza qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasəti Azərbaycan tarixinin faciələrlə, o cümlədən qanlı hadisələrlə dolu çox ağrılı mərhələlərini təşkil edir. Bu millətçi-şovinist siyasətin əsas məqsədi azərbaycanlıları öz tarixi torpaqlarından qovmaqla əzəli Azərbaycan ərazilərində ermənilərin uydurduqları "Böyük Ermənistan" dövləti yaratmaq olub.

Məqalədə hər dəfə Qarabağa dair ərazi iddialarının kənardan, məhz Ermənistanın təbliği, təhriki və təzyiqi ilə ortaya atılması diqqətə çatdırılır və göstərilir ki, XX əsrin 80-ci illərinin ikinci yarısında ermənilər özlərinin yaxın və uzaq xaricdəki himayədarlarının köməyi ilə "Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün yaranmış vəziyyətdən istifadə edərək yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair ərazi iddiaları irəli sürüblər. Nəticədə 1988-1993-cü illərdə monoetnik dövlət yaratmağa nail olan Ermənistan Respublikası Azərbaycana qarşı açıq-aşkar təcavüzkarlıq siyasəti yeridib, dinc sakinlər qətlə yetirilib, yaşayış məntəqələri dağıdılıb, talan edilib və yandırılıb.

Müəllif məqalədə XX əsrin 80-ci illərinin ikinci yarısından başlayaraq Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və işğalçılıq siyasətini, o cümlədən 1988-1993-cü illərdə azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətini elmi mənbələrə əsasən araşdırır, xüsusilə XX əsrin sonunda ermənilərin Xocalıda törətdikləri soyqırımı aktını bütün insanlığa qarşı ən ağır cinayətlərdən biri kimi qiymətləndirir. Məqalədə 1992-ci il fevralın 26-da Ermənistan silahlı qüvvələri tərəfindən şəhərin işğalı zamanı həyata keçirilən cinayətlər, xüsusilə dinc əhaliyə qarşı törədilmiş vandalizm aktları xarici mənbələrə əsasən geniş təhlil edilir, Xocalı soyqırımı ermənilərin azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirdiyi ən ağır cinayət kimi araşdırılır. Həmçinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsində bu strateji əhəmiyyətli ərazinin tarixinə nəzər salınır, Xocalı şəhərinin əhəmiyyətini artıran səbəblər göstərilir ki, bu da Dağlıq Qarabağda strateji əhəmiyyətli və əhalisi soyqırımına məruz qalmış ərazi haqqında daha ətraflı məlumat almaq istəyən xarici oxucuda geniş təsəvvür yaradır.

Məqalədə Xocalı soyqırımının dünyaya çatdırılması, ona siyasi-hüquqi qiymət verilməsi istiqamətində Azərbaycan dövlətinin gördüyü işlər, eləcə də Xocalı faciəsinin beynəlxalq aləmdə soyqırımı aktı kimi daha geniş tanınması məsələləri tədqiq edilir, bir sıra dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş sənədlər araşdırılır. Xüsusilə, bu qırğını soyqırımı və insanlığa qarşı cinayət kimi tanıyan İslam Əməkdaşlıq Təşkilatının (İƏT) toplantılarında qəbul edilən sənədlər də ayrıca təhlil edilir.

Qeyd edilir ki, hazırda Xocalı həqiqətlərinin dünyaya çatdırılması və beynəlxalq aləmdə daha geniş yayılması, eləcə də qətliama obyektiv siyasi-hüquqi qiymət verilməsi istiqamətində atılan addımlar Heydər Əliyev Fondu tərəfindən uğurla davam etdirilir. Fondun bu istiqamətdə fəaliyyəti nəticəsində dünya ölkələri erməni işğalçılarının Xocalıda insanlığa sığmayan qətlləri haqqında daha geniş məlumatlandırılır. Müəllif vurğulayır ki, beynəlxalq hüquqa görə, soyqırımı sülh və insanlıq əleyhinə yönələn əməldir və ən ağır cinayət hesab edilir. Bu barədə BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 (III) saylı qətnaməsi qəbul edilib və "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsbit olunub. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit olunmuş soyqırımı cinayətini təşkil edən bütün əməllər azərbaycanlılara qarşı tətbiq edilib. Müəllif diqqətə çatdırır ki, Xocalı soyqırımı dünya tarixində heç vaxt unudulmayan Xatın, Xirosima, Naqasaki, Sonqmi, Ruanda, Srebrenitsa və Holokost kimi dəhşətli soyqırımlarından heç də geri qalmır və adıçəkilən hadisələr dinc əhalinin soyqırımı olaraq bütün dünyada geniş əks-səda doğurub.

Professor Əli Həsənovun məqaləsinin nüfuzlu "Science and world" jurnalında dərc edilməsi təkcə müasir tariximizin ən qanlı səhifələrindən biri olan Xocalı soyqırımının öyrənilməsi və yaddaşlarda həkk olunması deyil, eləcə də Ermənistanın təcavüzkar siyasətinin dünyaya çatdırılması və ifşa olunması baxımından əhəmiyyətlidir.

# Azərbaycan-Pakistan parlamentlərarası əməkdaşlığın daha da inkişafı məsələləri müzakirə olunub

**Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə bu ölkənin Milli Assambleyasının sədri Sərdar Ayaz Sadiq ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Prezidenti İlham Əliyevin Pakistan ilə əlaqələrə xüsusi əhəmiyyət verdiyini bildirən səfir iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin yaranmasında parlamentlərin də önəmli rolunun olduğunu qeyd edib.**

Əli Əlizadə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Pakistan Milli Assambleyası (PMA) tərəfindən Azərbaycanın ədalətli mövqeyinin dəstəklənməsinin yüksək qiymətləndirildiyini vurğulayıb.



Qarşılıqlı olaraq həyata keçirilən və keçiriləcək yeni layihələr, əməkdaşlıq imkanları haqqında məlumat verən səfir parlamentlərarası əlaqələrin daha da inkişafı istiqamətində hər iki ölkənin qanunverici orqanlarının rəhbərlərinin və dostluq qruplarının səylərinin zəruri olduğunu, PMA ilə əməkdaşlığın davam etdiriləcəyini diqqətə çatdırıb. Sərdar Ayaz Sadiq Azərbaycanın Pakistan üçün qardaş ölkə olduğunu deyib, Azərbaycan ilə əlaqələrin inkişafında Pakistanın da maraqlı olduğunu bildirib. Pakistanın Ermənistanı bir ölkə olaraq tanımadığını qeyd edən Sərdar Ayaz Sadiq Ermənistanın əks səylərinə baxmayaraq, Pakistanın Azərbaycanı dəstəkləməyə davam edəcəyini vurğulayıb.



# Vaşinqtonda Baş Qərargah rəislərinin "Zorakı ekstremist təşkilatlarla mübarizə" mövzusunda görüşü olub

Vaşinqtonda "Zorakı ekstremist təşkilatlarla mübarizə" mövzusunda Baş Qərargah rəisləri səviyyəsində görüş keçirilib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov görüşdə iştirak edib.

# Nazirlər Kabinetində qaçqınların statusu haqqında qanunvericiliyə dəyişiklik edilməsi ilə bağlı iclas keçirilib



***Oktyabrın 25-də Azərbaycan Respublikası Nazirlər Kabinetində ölkəmizin mövcud qanunvericiliyində ("Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının Qanununa) "əlavə himayə" anlayışının daxil edilməsi təşəbbüsü üzrə görülmüş işlər və nəzərdə tutulan tədbirlərin müzakirəsi ilə bağlı iclas keçirilib.***

AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov iclasın gündəliyi barədə məlumat verərək deyib: "BMT-nin Qaçqınlar üzrə Ali Komissarının Azərbaycandakı nümayəndəsi Furio de Angelis Azərbaycan Hökumətinə iki məsələ ilə bağlı müraciət edib. Birinci məsələ üzrə "Azərbaycan Respublikasında qaçqın statusu almış şəxslərə verilən Qaçqın vəsiqəsinin və Yol sənədinin təsvirinin, spesifikasiyasının və nümunəsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı"nın layihəsinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi nəzərdə tutulur. Bu məsələ demək olar ki, bütün aidiyyəti dövlət orqanları ilə razılaşdırılıb. İkinci məsələ isə BMT-nin Qaçqınların Statusuna dair 1951-ci il Konvensiyası və 1967-ci il Protokolunda qaçqın anlayışı üçün qoyulan meyarlara uyğun gəlməyən, lakin fundamental insan hüquq və azadlıqlarının qorunması baxımından beynəlxalq himayəyə ehtiyacı olan şəxslər üçün sığınacaq təmin etməklə xüsusi statusun - "əlavə himayə"nin verilməsidir. "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının Qanunu var. Bu sənəd qeyd edilən beynəlxalq konvensiyaya uyğun olaraq 1999-cu ildə hazırlanıb. Bu gün həmin qanunda dəyişiklik edilməsi barədə layihəni müzakirə edəcəyik. Bu məsələ aidiyyəti qurumlarla müzakirə olunur. Həmçinin BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığına növbəti ildə ödəniləcək ianə məbləğinin artırılması məsələsinə baxılır".

BMT-nin Qaçqınlar üzrə Ali Komissarının Azərbaycandakı nümayəndəsi Furio de Angelis çıxış edərək Azərbaycan Hökumətinə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığına illik ianənin artırılması ilə bağlı təşəbbüsə görə təşəkkürünü bildirib. O deyib ki, Azərbaycanın qaçqınların statusu haqqında 1951-ci il tarixli Konvensiyaya qoşulması və "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının Qanununun bu Konvensiyaya uyğun olaraq hazırlanması yüksək qiymətləndirilir. BMT nümayəndəsi qeyd edib ki, hazırda Azərbaycanda qaçqın statusu almış 63 nəfər var və onlar müvafiq qanuna əsasən "qaçqın" statusu alıblar. Eyni zamanda, BMT QAK-ın Azərbaycandakı nümayəndəliyi təşkilata BMT-nin Baş Assambleyası tərəfindən verilmiş mandat əsasında bundan dəfələrlə çox şəxsə beynəlxalq himayəyə ehtiyacı olduqları üçün "qaçqın" statusu verib. Hökumət tərəfindən tanınmış qaçqınlarla birlikdə hazırda sayı 1108 nəfər olan bu şəxslər öz ölkələrini müharibə, geniş yayılmış zorakılıq, insan hüquqlarının kütləvi şəkildə pozulması və digər bu kimi səbəblərdən tərk edərək Azərbaycana gəliblər. Azərbaycan Hökuməti BMT QAK tərəfindən bu şəxslərə verilən sənədləri tanıyaraq onların ölkədə olmalarına dözümlülüklə yanaşıb. BMT QAK bu faktı minnətdarlıqla qiymətləndirməklə yanaşı, həmin kateqoriyadan olan şəxslərin sosial xidmətlərə, əmək bazarına, mülki və iqtisadi münasibətlərə daxil olmasının asanlaşdırılmasının əhəmiyyətini vurğulayıb. İnsan hüquqlarının müdafiəsi üzrə Azərbaycan Respublikasının qoşulduğu bir çox konvensiyalar və beynəlxalq sənədlər "əlavə himayə" anlayışının qanunvericiliyə daxil edilməsini və bu insanların Azərbaycanda mövcudluğunu leqallaşdırmağı tələb edir. "Əlavə himayə" anlayışının qanunvericiliyə daxil edilməsi ilə bu məsələ öz həllini tapacaq və BMT-nin Qaçqınların Statusuna dair 1951-ci il Konvensiyası və 1967-ci il Protokolundan irəli gələn öhdəliklərin icrası olaraq Azərbaycan da bu kateqoriya insanların beynəlxalq himayəsini müvafiq standartlara uyğun şəkildə həyata keçirəcək.

Yol sənədindən danışan Furio de Angelis bildirib ki, bu sənəd qaçqınlara mənşə ölkələri istisna olmaqla, bütün ölkələrə səfər etmək üçün viza almaq hüququ verir. Qaçqınlara verilən vəsiqənin təsviri və spesifikasiyasına gəldikdə isə, bu sənədin tövsiyə olunan formada hazırlanması onların cəmiyyətə, ölkə iqtisadiyyatına daha çox töhfə verə bilməsinə, həmçinin öz ehtiyaclarını təmin etmələrinə kömək göstərərdi.

Sonra Dövlət Miqrasiya Xidmətinin rəis müavini Pərviz Musayev çıxış edərək yol sənədinin və qaçqın vəsiqəsinin "qaçqın" statusu almış şəxslərə verilməsinin əhəmiyyətindən danışıb. Həmçinin "Əlavə himayə" ilə bağlı qanunvericiliyə dəyişiklik edilməsinin Azərbaycan Hökumətinin BMT-nin Qaçqınların Statusuna dair 1951-ci il Konvensiyası və 1967-ci il Protokolundan irəli gələn öhdəliklərinin icrası baxımından əhəmiyyətini, məsələyə baxılarkən isə dövlət maraqlarının qorunmasının nəzərə alınmasını vurğulayıb.

Maliyyə nazirinin birinci müavini İlqar Fəti-zadə, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İlqar Rəhimov, Xarici İşlər Nazirliyinin humanitar və sosial məsələlər idarəsinin rəis müavini Seymur Mərdəliyev mövzu ətrafında çıxış ediblər.

İclasa yekun vuran Baş nazirin müavini Əli Həsənov diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin çox ciddi səyləri nəticəsində Azərbaycan qısa müddət ərzində dünya ölkələri üçün nümunəyə çevrilib. "Bunu biz demirik. Bütün dünya ölkələri deyir ki, Azərbaycan bütün istiqamətlərdə, istər qaçqınlar və məcburi köçkünlər üçün yaradılan hüquqi baza və şəraitə, istər iqtisadi, istərsə də humanitar sahənin inkişafında dünya ölkələri üçün nümunədir. Bu, ulu öndər Heydər Əliyevdən başlayaraq bu işləri çox uğurla davam etdirən Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın gördükləri işlərin nəticəsidir. Bu gün beynəlxalq aləmdə Azərbaycana çox böyük hörmətlə yanaşırlar. Bunun da səbəbi təbii ki, dövlətimizin başçısının və Birinci vitse-prezidentin dünyada tutduqları mövqedir, ölkəmizdə yaratdıqları şəraitdir", - deyə Əli Həsənov əlavə edib.

Baş nazirin müavini 2017-ci ilin oktyabrında Cenevrədə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının İcraiyyə Komitəsinin 68-ci sessiyasında iştirakını və səfər çərçivəsində BMT-nin Cenevrə bölməsinin rəhbəri Mixael Möller ilə keçirilən görüşü xatırladıb. Qeyd edib ki, M.Möller Azərbaycanın BMT-nin ən fəal üzvlərindən biri olduğunu, ölkəmizin sürətli inkişafının, sosial-iqtisadi məsələlərin həllindəki qərarlarının bir çox ölkələr üçün örnək olduğunu vurğulayıb. "Mixael Möllerə Azərbaycanda qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, ölkənin hərtərəfli inkişafı istiqamətində görülən işlər barədə məlumat verdim. O dedi ki, biz dünyaya adətən BMT nümunələrini yayırıq. Ancaq bu gün Azərbaycan dövlətinin gördüyü işlər barədə eşidəndən sonra hesab edirəm ki, biz Azərbaycan dövlətinin qaçqın və məcburi köçkünlərin problemlərinin həlli, iqtisadiyyatın inkişafı ilə bağlı gördüyü işləri dünya ölkələrinə yaymalıyıq", - deyə Əli Həsənov əlavə edib. İclasda Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının və digər aidiyyəti dövlət orqanlarının nümayəndələri də iştirak ediblər.

## Siyavuş Novruzov: "YAP-da hesabat-seçki konfransları yekunlaşmaq üzrədir"



***"Yeni Azərbaycan Partiyasının (YAP) şəhər və rayon təşkilatlarının hesabat-seçki konfransları yekunlaşmaq üzrədir". SİA-nın məlumatına görə, bunu YAP İcra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov deyib. S.Novruzov bildirib ki, 74 rayon və şəhər təşkilatında hesabat-seçki konfransları artıq başa çatıb: "10 təşkilatda konfranslar hələ keçirilməyib. Noyabr ayının 15-ə qədər bu təşkilatlarda da konfranslar keçiriləcək və hazırda bu istiqamətdə işlər davam edir".***

YAP İcra katibinin müavini bildirib ki, konfranslar nəticəsində bir sıra rayon və şəhər təşkilatının sədrləri dəyişdirilib: "Dəyişiklik bu və ya digər səbəblər ilə əlaqədardır. Dünyasını dəyişən var, başqa işə keçənlər var, üzvlər tərəfindən mövcud ictimai-siyasi proseslərə cavab vermədiyi hesab olunanlar var və s. Konfranslar tam başa çatdıqdan sonra nə qədər təşkilat sədrinin dəyişdirildiyi dəqiq məlum olacaq". S.Novruzov bildirib ki, bu konfransları seçkilərə hazırlıq kimi də dəyərləndirmək olar: "Konfranslar başa çatdıqdan sonra dekabr ayında son yekunlaşdırma işləri aparılacaq və növbəti ildən bilavasitə seçkilərə hazırlaşacağıq. Bu il seçki ili olmadığı üçün partiyanın ilk təşkilatları, rayon və şəhər təşkilatları ilə bağlı işlərimizi görürük, yekunlaşdırırıq ki, partiya təşkilatlarının fəaliyyəti tam tənzimlənsin, maddi texniki bazası yaxşılaşdırılsın". /trend/

## Mübariz Qurbanlı: "Azərbaycan tarixində xristianlıq mühüm yerlərdən birini tutub"



***Sivilizasiyaların mərkəzində yerləşən Azərbaycanda zaman-zaman müxtəlif dinlər mövcud olub. Azərbaycan tarixində xristianlıq mühüm yerlərdən birini tutub. Bu gün ərazimizdə olan alban kilsələri xristianlıqdan qalan yadigardır. AZƏRTAC xəbər verir ki, bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı oktyabrın 25-də "Bibliya tarixi" və "Pravoslav katixizisi" kitablarının təqdimat mərasimində deyib. Onun sözlərinə görə, kitabların Azərbaycan dilində təqdim olunması xüsusi əhəmiyyətə malikdir. Çünki azərbaycanlılar bu nəşrləri ana dilində oxuya biləcəklər. Dinini mükəmməl bilən insan heç vaxt radikal qrupların təsirinə düşə bilməz. Kitabların ictimaiyyət tərəfindən yüksək dəyərləndiriləcəyinə əminliyini bildirən M.Qurbanlı deyib: "Bu cür kitabların Azərbaycanda daha geniş yayılması vacibdir".***

Qeyd edək ki, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə 2016-cı il Azərbaycanda "Multikulturalizm İli", 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan olunub. Bu sülhsevər siyasətin və xalqımızın bütün millətlərə və dinlərə xoş münasibətinin əyani sübutu olaraq "Bibliya tarixi" və "Pravoslav katixizisi" kitabları Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Dilçilik İnstitutunun sosiolinqvistika və dil siyasəti şöbəsinin müdiri, professor Mayıl Əsgərov tərəfindən dilimizə tərcümə edilib, Rusiyanın Sankt-Peterburq şəhərində fəaliyyət göstərən "İqumen Taisinin xatirəsi cəmiyyəti" İctimai Birliyi tərəfindən nəşr olunub. Kitablar DQİDK-nın xüsusi icazəsi ilə Azərbaycana gətirilib.

# Novruz Məmmədov: "Bu gün dünya birliyinin ən çox ədalətə ehtiyacı var"



## Azərbaycan Prezidentinin Xarici siyasət məsələləri üzrə köməkçisi - şöbə müdiri Novruz Məmmədovun SƏS TV-yə müsahibəsi:

***- Novruz müəllim, Azərbaycan və Ermənistan prezidentlərinin Cenevrə görüşündən sonra Ermənistan prezidenti Serj Sarkisyan sərsəm bəyanatlar verdi. Siz bunu necə şərh edərdiniz?***

- Ermənistan Prezidenti Serj Sarkisyan Azərbaycan Prezidenti İlham Əliyevlə son görüşdən sonra səsləndiriləcək bəyanatla razılaşsa da, görüşdən sonra ağlına gələni deyib. Sarkisyan tamamilə görüşün ruhuna uyğun olmayan fikirlər səsləndirib. Sarkisyan həmsədrlərin qarşısında söz vermişdi ki, görüşdən sonra konkret fikirlərin dünya ictimaiyyətinə çatdırılmasına razıdır, amma görüşdən çıxandan sonra riyakarlıq etdi, başqa cür danışdı. Əgər Ermənistan prezidenti veriləcək bəyanatla razı deyildisə, görüşdə bunu bildirə bilərdi, deyərdi ki, ürəyinə, ağlına nə gəlirsə, görüşdən sonra bildirəcək. Amma belə olmadı. Həmsədrlər əvvəlcə söz verib sonra başqa addım atan prezident barədə nə düşünürlər? Dövlət başçısı statusu olan şəxs belə riyakarlıq etməz, yalan danışmaz. Danışdı, cavabını da aldı. Azərbaycan Prezidenti və digər dövlət rəsmilərinin Ermənistanın dövlət başçısına cavabı özünü çox gözlətmədi.

Ermənistan xalqı məhz bu cür rəhbərlərin sayəsində ağır duruma düşüb. Ermənilər ölkələrini tərk edirlər. Bu gün Ermənistanda cəmi 2,5 milyon insan yaşayır. Proqnozlara görə, vəziyyət bu cür davam edəcəksə, 20 ildən sonra da ölkə əhalisinin sayı 2,5 milyon nəfəri keçməyəcək. Amma Azərbaycan müstəqillik qazandıqdan sonra indiyə qədər əhalisi 3 milyon nəfərə qədər artıb. Bu, fərqi, inkişafı göstərir.

***- Azərbaycanın Avropa Şurasından (AŞ) çıxıb-çıxması məsələsi haqqında hansı fikirdəsiniz?***

- Bu gün dünya birliyinin ən çox ədalətə ehtiyacı var. Amma təəssüflər olsun ki, AŞPA və digər belə qurumlar ədaləti kiçik geosiyasi maraqlara qurban verirlər. Ədalətin olmadığı yerdə isə Qərbin tez-tez bəhs etdiyi universal dəyərlərin heç bir yeri ola bilməz. Ədalət yoxdursa, insan haqları, azadlıqları məsələlərindən məqsədli istifadə ediləcək, siyasi amil kimi ortaya qoyulacaq. Azərbaycan üzv olduğu beynəlxalq təşkilatların ədalətli olmasını istəyir. Avropa Şurasının bir üzvünün ərazisinin bir hissəsini işğal altında saxlayan başqa bir dövlət də bu qurumun üzvüdür. Ancaq həmin işğalçıya - Ermənistana heç kim heç nə demir.

XXI əsrdə, insan intellektinin ən yüksək həddə inkişaf etdiyi bir dövrdə dünyada baş verən proseslər göz önündədir. İraqda, Suriyada, Liviyada, Afrikanın onlarla dövlətində hər gün minlərlə insan həlak olur, amma bu barədə danışan yoxdur. Amma bu proseslər öz-özünə baş vermir. Belə olan halda isə təkcə bu proseslərin baş verdiyi dövlətlər əziyyət çəkmir. Təhlükə böyüyür və böyük dövlətlər də son nəticədə bundan əziyyət çəkirlər. 20-ci əsrdə iki dünya müharibəsi olub, o müharibələri kiçik dövlətlər yaratmayıb, başlamayıb. Belə hallarda böyük dövlətlərin özləri üçün də ciddi təhlükələr yaranır. Əsas məsələ də budur.

Söhbət ondan gedir ki, Azərbaycanın Avropa Şurasından (AŞ) çıxıb-çıxmaması məsələsinə Azərbaycan qərar verə bilər. Azərbaycan isə səbrlidir və lazım bildiyi zaman öz maraqları çərçivəsində hər bir addımı ata bilər. Avropa Şurası Parlament Assambleyasında da, Avropada da heç kim Azərbaycanın Avropa Şurasından çıxmasını istəmir. Məsələ Azərbaycanın bu qurumdan çıxarılması formasında da qoyula bilməz.

AŞPA müəyyən dairələrin əlində sanki bir alətə çevrilib. Avropa Şurası Parlament Assambleyası Azərbaycana qarşı qərəzli bir qurumdur. AŞPA iki ölkəni qəbul edib, lakin onlardan biri digərinin ərazilərini bütün bu illər ərzində işğal altında saxlayır. AŞPA-dan bunu tələb etmək lazımdır ki, əgər sən ədalətli bir qurumsansa, ədalət tərəfdarısansa, niyə bununla bağlı heç bir söz demirsən, heç bir qərar qəbul etmirsən?! AŞPA müəyyən dairələrin əlində sanki bir alətə çevrilib. Azərbaycan isə inkişaf edir, böyük nüfuzu var, ölkənin münaqişədə olmasına baxmayaraq, sabitliyini, təhlükəsizliyini, davamlı inkişafını necə lazımdır təmin edir, regionda, beynəlxalq aləmdə nüfuzu artır.

Azərbaycan kiçir bir dövlət olsa da, Şimal, Cənub, Şərq, Qərb kimi mühüm dəhlizlərin, yeni İpək Yolunun yenidən bərpa olunmasında həm təşəbbüskardır, həm iştirakçıdır, həm də aparıcı bir rol oynayır. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, TANAP, TAP layihələri, Şimal-Cənub nəqliyyat dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu - bütün bunların hər biri Azərbaycanın 26 ildə həyata keçirdiyi böyük işlərdir. Dünyanın ən böyük dövlətləri belə, bu cür miqyasda işlər görməyiblər. Bütün bunlar Azərbaycanın beynəlxaq aləmdə yerini, rolunu göstərir. Bu isə çox təəssüflər olsun ki, Qərbdə bəzi dairələrin xoşuna gəlmir. Axtarırlar ki, hansısa yolla bir şey desinlər, bir fikir söyləsinlər. Azərbaycan ərazilərini 25 ildən artıqdır ki, işğal altında saxlayan işğalçı Ermənistan haqqında isə bir dəfə də olsun söz demirlər, amma Azərbaycanla bağlı balaca bir söhbət olan kimi danışırlar.

Bu gün Myanmada Rohinca müsəlmanları ilə bağlı böyük bir insan faciəsi baş verir. Bir neçə gün əvvəl "Euronews" telekanalı Rohinca müsəlmanları ilə bağlı faciəni zəmanəmizin ən böyük faciələrindən biri kimi dəyərləndirdi. Bu həqiqətdir. Amma bu faciəni kimlər törədib, hansı ölkədə baş verir?! Bu faciə Qərbin uzun illər müdafiə etdiyi, həbsxanadan azad etdiyi Nobel Sülh Mükafatı laureatı, Myanma xarici işlər naziri və dövlət müşaviri Aun San Su Çjinin indi rəhbər olduğu ölkədə baş verir. Bu hüquq müdafiəçisi faktiki olaraq ölkənin lideri, baş naziri vəzifəsindədir. Amma Qərb Rohinca müsəlmanları ilə bağlı məsələyə sərt, qəti mövqe bildirmir. 1990-cı illərin əvvəlindən Azərbaycanda 1 milyondan çox insan qaçqın və məcburi köçkünə çevrilib. Bu illər ərzində Azərbaycanda baş verənləri niyə əsrimizin ən böyük faciələrindən biri kimi qiymətləndirmirdilər? Bu, bir nümunədir. Bəli, Rohinca müsəlmanlarına qarşı törədilənlər böyük faciədir, amma Azərbaycan haqqında bir dəfə də bunu deməyiblər. "Euronews" telekanalı da susanların sırasındadır. Azərbaycanda bir insanın hüququnun pozulduğu iddia olunsa, bu barədə aylarla danışıb yazacaqlar. Amma 1 milyon qaçqın və məcburi köçkünlərlə bağlı bəzən dilucu danışan da tapılmır. Bu, qərəzli, ikili standart deməkdir. Dünyada sabitliyə, təhlükəsizliyə mane olan məhz belə hallardır. Azərbaycana qarşı belə hallara tez-tez yol verilir.

***- Novruz müəllim, bu gün dünyada mövcud olan münaqişələrin günahkarları, səbəbkarları kimdir?***

- Bu gün dünyada mövcud olan münaqişələr kiçik dövlətlərin fəaliyyətinin nəticəsi deyil, xüsusən Qərb dövlətlərinin apardıqları siyasətin nəticəsidir. Artıq bu, bumeranq kimi Avropanın özünə qayıdır. Avropanın özündə separatizm ocaqları kifayət qədər çoxdur. Onlar əvvəlcədən ədalətli mövqe tutmadıqları, separatizmi açıq və örtülü formada dəstəklədikləri üçün artıq bu gün belə problemlərlə üzləşirlər. Hazırda bu problemlərlə üzləşən ölkələrə vaxtında deyirdik ki, gəlin, separatizmə qarşı mövqe bildirin. İndi həmin ölkələr bizə deyirlər ki, separatizmə qarşı mövqe bildirin. Bu günlərdə İtaliyanın iki vilayəti iqtisadi müstəqillik istədi. Bu, Avropanın aparıcı ölkəsi olan İtaliyada ilk addım ola bilər. Böyük Britaniyanın da Şimali İrlandiya, Şotlandiya kimi problemləri var. Geosiyasi maraqlara tabe olmaqdansa, ədalətli prinsiplər ortaya qoysaydılar, bu gün belə hallar da olmazdı. Ona görə də Avropada və dünyada prosesləri dəqiq proqnozlaşdırmaq çətin olur. Təəssüflər olsun ki, indi belə vəziyyət yaranıb. 1990-cı illərin əvvəlində dünyanın 10 ölkəsində narahatlıq doğuran münaqişələr olub, indi isə 50 ölkədə belə hallar var. Əgər Qərb, dünya Dağlıq Qarabağ münaqişəsinə ədalətli yanaşsaydı, münaqişə zamanında ədalətli həll olunsaydı, bəlkə də bu gün bu münaqişələrin çoxu olmazdı.

***- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının 72-ci sessiyasındakı çıxışı haqqında nələri söyləmək olar?***

- Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 72-ci sessiyasında çıxışı təkcə Azərbaycana lazım olan bir çıxış deyildi. Bu, beynəlxalq ictimaiyyətə, beynəlxalq birliyin üzvlərinə ünvanlanan bir mesaj idi. Son bir neçə onillikdə beynəlxalq aləmdə vəziyyət çox dəyişib, çox gərginləşib, ölkələr arasında, müəyyən regionlarda sabitlik, təhlükəsizlik pozulub və sabitliyi, təhlükəsizliyi, davamlı inkişafı təmin edən dünya düzəninin də bu gün hələ ortaya çıxarılması bir problemə çevrilib. Bu nöqteyi-nəzərdən Azərbaycan Prezidentinin BMT Baş Assambleyasının 72-ci sessiyasında çıxışı o deməkdir ki, bu yolla getmək düzgün deyil. Bu, nə münaqişələrin həllinə, nə də sabitliyin, təhlükəsizliyin və davamlı inkişafın təmin olunmasına töhfə verir. Ona görə də ikili standartlardan, yalan, qərəzli mövqelərdən əl çəkmək lazımdır. Bu baxımdan Azərbaycan Prezidentinin çıxışı dünya birliyinə bir mesaj idi. Bu gün dünyanın böyük ölkələri arasında böyük gərginliklər var. Axırı necə olacaq - dəqiq proqnoz vermək çox çətindir.

Bundan əvvəl Azərbaycanın çox böyük rolu oldu ki, Rusiya-Türkiyə münasibətləri əvvəlki yaxşı vəziyyətinə qayıtsın. Belə hallar çoxdur. Bu mənada Azərbaycanın beynəlxalq aləmdə çox böyük yeri var.

***- Novruz müəllim, oktyabrın 30-da açılışı olacaq Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ölkəmiz üçün əhəmiyyəti haqqında nə deyə bilərsiniz?***

- Bu ilin oktyabrın 30-da açılışı olacaq Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin Avropa ilə Asiyanı birləşdirməsindən, bir-birinə yaxınlaşdırmasından başqa böyük bir missiyası, vəzifəsi ola bilməz. Ümumiyyətlə, bu illər ərzində kiçik bir dövlətin Ümummilli Lider Heydər Əliyevin, hazırda isə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirdiyi bəzən bir layihə belə dövlətimizin çox uğurlu bir yol keçdiyinə nümunə ola bilərdi. Amma görün Azərbaycan nə qədər layihələr həyata keçirib. Şərqlə-Qərbi birləşdirmək, min il bundan əvvəl mövcud olmuş Böyük İpək Yolunu bərpa etmək, Şimalla-Cənub arasında əlaqələr yaratmaq, demək olar ki, planetin bütün ölkələrini bir-birinə yaxınlaşdıran layihələrdir. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri - XX və XXI əsrin müqavilələri mühüm layihələrdir. Azərbaycanın işıqlı gələcəyi, firavanlığı bax bu siyasətlə təmin olunur. Düşünürəm ki, bu yol uzun və əbədidir. Təbii ki, bu yolda hər birimiz çalışmalı və öz töhfəmizi verməliyik.

**Ceyhun Rasimoğlu**

# “Sinxua” agentliyi Siyavuş Novruzovla eksklüziv müsahibə dərc edib

***Çinin “Sinxua” dövlət informasiya agentliyinin saytında Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, Milli Məclisin komitə sədri, Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Siyavuş Novruzovla eksklüziv müsahibə dərc edilib.***




AZƏRTAC Azərbaycan-Çin dostluq münasibətlərinin inkişafına oxucuların böyük marağını nəzərə alaraq, müsahibənin mətnini qısa ixtisarla təqdim edir.

1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi bərpa olunandan sonra Çinin siyasi və iqtisadi inkişaf sahəsində qazandığı uğurların ölkəmizdə daim diqqət mərkəzində olduğunu vurğulayan Siyavuş Novruzov müsahibəsində deyib: “Biz Çində Kommunist partiyasının rəhbərliyi altında qazanılmış böyük inkişafın şahidləriyik. Təbii ki, bu inkişafda Çin Kommunist Partiyası və onun qurultaylarında qəbul edilmiş qərarlar çox böyük rol oynayıb. Çinin inkişafı çox cəhətdən bu qərarlar sayəsində mümkün olub”.

S.Novruzov qeyd edib ki, son onilliklərdə Çin çox böyük inkişaf yolu keçib. Çin Kommunist Partiyasının qurultaylarının bütün qərarlarının uğurla həyata keçirilməsi nəticəsində bütün dünya Çin Xalq Respublikasının iqtisadi potensialının və beynəlxalq nüfuzunun əhəmiyyətli dərəcədə artmasının şahidi olub.

Azərbaycanda hakim partiyanın icra katibinin müavini qeyd edib ki, Çinin inkişafı çox cəhətdən ölkənin ənənəvi dövlətçilik tarixi sayəsində müəyyən edilib və digər tərəfdən, iqtisadiyyat sahəsində baş verən yeniliklər, sosial problemlərin həlli, əhalinin həyat səviyyəsinin yüksəldilməsi bu inkişafda böyük rol oynayıb. Cəmiyyətin, elm və texnikanın müxtəlif sahələrinin, təhsilin, elmin və təbabətin hərtərəfli tərəqqisi təmin olunub.

S.Novruzov deyib: “Dünya iqtisadiyyatında Çinin mühüm rolu, onun artmaqda olan siyasi nüfuzu və əhalinin rifahının yüksəldilməsi sübut edir ki, Kommunist Partiyasının rəhbərliyi tərəfindən həyata keçirilən islahatlar və inkişaf strategiyası özünü doğruldur”. ÇKP cəmiyyətin aparıcı siyasi qüvvəsi kimi ölkənin ictimai həyatında çox böyük rol oynayır, Çinin hərtərəfli inkişafı istiqamətində möhtəşəm vəzifələri yerinə yetirir.

Azərbaycan parlamentinin üzvü Azərbaycan-Çin əlaqələri mövzusuna toxunaraq vurğulayıb ki, bu əlaqələr sülhün və sabitliyin qorunması, iki ölkənin iqtisadi tərəqqisinin təmin edilməsi məqsədlərinə xidmət edir və qarşılıqlı faydalı əməkdaşlıq, ərazi bütövlüyünə qarşılıqlı hörmət kimi fundamental prinsiplərə əsaslanır. Azərbaycan və Çin xalqları arasında dostluq münasibətlərinin dərin və çoxəsrlik tarixi kökləri var. 2017-ci ildə Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlər yaradılmasının 25 illiyi tamam olur. Azərbaycan Çin Xalq Respublikasının sədri Si Cinpin tərəfindən irəli sürülmüş “Kəmər və yol” təşəbbüsünü dəstəkləyir.

Yeni Azərbaycan Partiyası Çin Kommunist Partiyası ilə dostluq münasibətləri saxlayır. İki ölkənin hakim partiyaları arasında əməkdaşlığ haqqında sazişlər imzalanıb. Yeni Azərbaycan Partiyasının üzvləri Çin Kommunist Partiyasının qurultaylarında həmişə iştirak edir və orada baş verən prosesləri izləyirlər. Azərbaycan-Çin Parlamentlərarası işçi qrupu Azərbaycanda ən böyük parlamentlərarası qrupdur və onun 25 üzvü var.

S.Novruzovun sözlərinə görə, iki ölkə və onların parlamentləri arasında yaranmış səmimi dostluq münasibətləri Azərbaycanda yüksək qiymətləndirilir və bu münasibətlərin daha da inkişaf etdirilməsi üçün səy göstərilir. O deyib: “Azərbaycan Prezidenti İlham Əliyevin Çinə çoxsaylı səfərləri, Şanxayda Ümumdünya EKSPO sərgisində Azərbaycan pavilyonunun fəaliyyəti, iki ölkə arasında tələbə mübadiləsi, Azərbaycan iqtisadiyyatının inkişafında Çinin iştirakı, Çin ilə Azərbaycan arasında əmtəə dövriyyəsinin artması, ölkələrimiz arasında aviasiya əlaqəsi dövlətlərimiz və xalqlarımız arasında münasibətlərin inkişafına müsbət təsir göstərir”.

S.Novruzov vurğulayıb: “Deməliyəm ki, Çinin gələcək inkişaf perspektivləri çox böyükdür. Bu gün Çin dünyanın aparıcı dövlətlərindən biridir, biz də bu ölkə ilə daha çox yaxınlaşmaq üçün müəyyən addımlar atırıq”.

## Gənclər və idman idarələrinin rəhbərlərinin iştirakı ilə Dövlət Proqramının icrası müzakirə olunub

Oktyabrın 25-də Azərbaycan Milli Olimpiya Komitəsində Gənclər və İdman Nazirliyinin gənclər və idman idarələrinin rəhbərlərinin iştirakı ilə “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramının icrasına dair icti-mai müzakirə keçirilib. AZƏRTAC xəbər verir ki, gənclər və idman nazirinin müavini İntiqam Babayev Dövlət Proqramının Azərbaycan Prezidenti İlham Əliyevin 2015-ci il 26 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”na əsasən hazırlandığını vurğulayıb. Qeyd edib ki, bu mükəmməl sənəddə Azərbaycan gənclərinin maraqları, onların hərtərəfli inkişafı, beynəlxalq platformalara çıxışı məsələləri tam nəzərə alınıb. Bu da Azərbaycan dövlətinin ölkə gənclərinə yüksək diqqət və qayğısının növbəti bariz nümunəsidir.




Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Rafiq Abbasov ölkəmizdə gənclər və idman sahələrinə göstərilən dövlət qayğısından danışıb. Qeyd olunub ki, Azərbaycanda təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. R.Abbasov bildirib ki, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi də proqramın əhatə etdiyi dövrdə ölkə gəncliyinin inkişafı, gənclərin asudə vaxtının səmərəli təşkili, onlarda vətənpərvərlik ruhunun gücləndirilməsi istiqamətində silsilə tədbirlər təşkil edəcək. Bu istiqamətdə hazırlıq prosesinə artıq başlanılıb.

Digər çıxış edənlər Dövlət Proqramının ölkə gənclərinin həyatında mühüm rol oynayacağını, onların dünyagörüşünün artırılmasına, fiziki və mənəvi sağlamlıqlarının güclənməsinə, beynəlxalq arenaya inteqrasiyasına təkan verəcəyini vurğulayıblar. Tədbirdə “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramında nəzərdə tutulan istiqamətlər üzrə gənclərin əsas problemləri, onların həlli yolları, beynəlxalq təcrübə, gənclərlə bağlı həyata keçirilmiş əvvəlki dövlət proqramlarının nəticələri və s. məsələlərə dair fikir mübadiləsi aparılıb.

# “Houston Chronicle”: Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır

***Amerika Birləşmiş Ştatlarında çıxan “Houston Chronicle” qəzeti “Amoco” şirkətinin ali rəhbərliyinin sabiq üzvü və Azərbaycanın ABŞ-da fəxri konsulu Art MakHaffinin “Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır” sərlövhəli məqaləsini dərc edib.***




AZƏRTAC xəbər verir ki, müəllif bu məqalədə “Əsrin müqaviləsi” imzalandıqdan sonra özünün Azərbaycanda işlədiyi ilk illəri xatırlayaraq yazır ki, SSRİ dağılandan sonra müstəqillik qazanmış bu ölkədə ovaxtkı iqtisadi vəziyyət heç də ürəkaçan deyildi. MakHaffi qeyd edir ki, indi - o vaxtdan 20 ildən artıq müddət keçəndən sonra Azərbaycan və onun paytaxtı Bakı mürəkkəb bir regionda iqtisadi fəaliyyət mərkəzlərinə, Qərbin etibarlı ticarət və enerji müttəfiqinə çevrilib. Konsul vurğulayır ki, Azərbaycanın transformasiyası və inkişafı xeyli dərəcədə onun neft-qaz sənayesi sayəsində mümkün olub.

Məqalədə daha sonra “Əsrin müqaviləsi” barədə məlumat verilir. Müəllif yazır ki, 1990-cı illərin ortalarında, ölkədə daxili nizamın bərpasından və Ermənistan ilə atəşkəs barədə saziş bağlandıqdan sonra Azərbaycan Prezidenti Heydər Əliyev nefti milli prioritetə çevirdi. “Amoco” və 9 digər şirkət Azərbaycanın neft yataqlarının kompleks şəkildə işlənilməsi barədə ARDNŞ ilə saziş imzaladılar. Bununla da regionun enerji potensialı genişləndirildi.

Ötən ay ilkin konsorsiumun tərəfdaşları əməkdaşlıq müddətini daha 25 il uzatdılar. Əvvəlinci razılaşma Azərbaycanın tərəqqisinə xidmət edirdisə, bugünkü razılaşma Avropanın uzunmüddətli enerji təhlükəsizliyini təmin edəcək. MakHaffi Avropanın enerji təchizatı problemlərini, bəzi Avropa ölkələrinin vahid qaz təchizatçısından və dəyişkən geosiyasi vəziyyətdən asılılığı məsələsini müzakirə edərək yazır ki, Avropanın enerji resurslarını şaxələndirə bilməsi çox vacibdir. Sentyabr ayında Azərbaycanda imzalanan sonuncu müqavilə bu prosesə şərait yaradacaq.

İndi bu konsorsiuma ARDNŞ ilə yanaşı, 1998-ci ildə “Amoco” şirkətini almış Britaniyanın BP şirkəti, ABŞ-ın “ExxonMobil” və “Chevron”, Yaponiyanın “Inpex” və “Itochu”, Norveçin “Statoil”, Türkiyənin “TPAO” və Hindistanın “ONGC Videsh” şirkətləri daxildir.

Müəllif yazır ki, “Əsrin müqaviləsi” imzalanan tarixdən keçən müddətdə Azəri-Çıraq-Günəşli yatağından 3 milyard barrelədək neft (təbii qazla birgə) çıxarılıb. İlk milyardlıq neft layihəsi Qərbin neft şirkətləri tərəfindən on milyardlarla əlavə sərmayə yatırılmasına yol açıb. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında ilkin müqavilənin müddəti başa çatdıqdan sonra ardıcıl olaraq çoxsaylı əlavə layihələr, o cümlədən Azəri-Çıraq-Günəşli yatağının kompleks şəkildə işlənilməsi, Aralıq dənizi limanlarına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin çəkilməsi, nəhəng “Şahdəniz” qaz yatağının işlənilməsi və Azərbaycandan Avropaya təbii qaz nəql edəcək Cənub qaz dəhlizinin tikintisi layihələri həyata keçirilib.

MakHaffi yekunda yazır ki, ötən əsrin müqaviləsi Azərbaycanın 1994-cü ildə təsəvvür edilməsi belə mümkün olmayan dərəcədə tərəqqisinə kömək etdi, bu əsrin müqaviləsi isə avropalıların vahid qaz ixracatçısından tam asılı olmadıqlarını biləræk, soyuq qış aylarında rahat yatmalarına şərait yaradacaq.

*Yusif Babanlı*
*AZƏRTAC-ın xüsusi müxbiri*
*Vaşinqton*

# AŞPA-nın gündəliyinin əsasını erməniپərəst qüvvələrin plan və proqramları təşkil edir

*Azərbaycanın dünyada yerinin və rolunun möhkəmlənməsindən ciddi narahat olan bəzi xarici dairələr ölkəmizə qarşı geniş gözdənsalama kampaniyası aparırlar. Bu sırada son vaxtlar AŞPA-dakl bəzi ermənipərəst deputatlar, xüsusilə də, qurumun rəhbəri T.Yaqland geniş və əhatəli şəkildə qərəzli iş aparır. Məhz AŞPA-nın sessiyasında ardıcıl olaraq Azərbaycanla bağlı məsələlərin müzakirə edilməsi və heç bir ciddi əsaslara söykənməyən qətnamələrin qəbul edilməsi də T.Yaqland və onun ətrafında olan erməipərəst ünsürlərin səyinin və rolunun nəticəsidir. İstər daxili, istərsə də xarici siyasət istiqamətində, siyasi və iqtisadi nailiyyətlərə imza atan, beynəlxalq miqyasda söz sahibi olan, inkişaf tendensiyasını uğurla davam etdirən Azərbaycanın nailiyyətləri erməni lobbisi, ümumilikdə ölkəmizi gözü götürməyən qüvvələrdə qıcıq yaratması başa düşüləndir.*

Hətta düşmən mövqe sərgiləmələrinin, şər və böhtan xarakterli qarayaxma kampaniyalarının da nədən qaynaqlandığı bəllidir. Lakin təəssüf doğuran məqam ondan ibarətdir ki, həmin qüvvələrin təsiri artıq Avropa Şurasına da gəlib çatıb və bu qurumun bəzi ölkələrdən olan deputatları həmin qruplaşmalara qoşulub. Sanki Avropa Şurasının gündəliyinin əsasını bu erməni lobbisinin, ermənipərəst qüvvələrin plan və proqramları təşkil edir. Hətta indi elə şərait yaradılıb ki, Azərbaycana pozitiv, xeyirxah və dost münasibət bəsləyənlər belə Azərbaycan haqqında həqiqətləri dilə gətirməyə ehtiyat edirlər və bizimlə həmfikir, həmrəy olmaqda qınanılacaqlarından, nəticədə hədəfə alınacaqlarından çəkinirlər. Budurmu Avropa demokratiyası? Hüquq və azadlıqlar dedikdə, Avropa Şurası bunumu nəzərdə tutur? Yaxud öz gündəliyini erməni lobbisinin plan və proqramları əsasında tərtib edən bir qurumun digərlərinə müstəqillik dərsi keçməyə necə haqqı çatır?



İşğalçı Ermənistan barədə heç bir ölçü götürülmədən, 20 faiz torpaqları 25 ildir işğal altında olan Azərbaycana qarşı sanksiya tələbini ön plana çəkərək, Yaqland Avropanın fundamental dəyərlərinə bu dərəcədə açıq hörmətsizlik nümayiş etdirir.

### Rövşən Rzayev: "Azərbaycana qarşı tələblər Yaqlandın qərəzli mövqeyidir"

Millət vəkili Rövşən Rzayev "Səs" qəzetinə açıqlamasında Azərbaycana qarşı tələblərin T.Yaqlandın qərəzli mövqeyi olduğunu bildirdi: "Avropa Şurasının 10 mindən artıq icrası hələ də yerinə yetirilməyən qərarları olduğu halda, yalnız Azərbaycanı müzakirə mövzusu kimi ön plana çəkməsi ikili standartlar siyasətidir. Təkcə Ermənistana qarşı qərar və qətnamələrin içrasız qalmasını nəzərə aldıqda, bu, ədalətsiz yanaşmadır".

Millət vəkilinin sözlərinə görə, Azərbaycan Avropa Şurasının bütün tələblərinin öhdəsindən layiqincə gəlmiş və bütün qərarlarına hörmətlə yanaşmışdır. Avropa Şurasında Azərbaycana mənfi münasibət ədalətli deyil və qarayaxma kampaniyalarıdır.

R.Rzayevin sözlərinə görə, Azərbaycan Avropa Şurasına üzv olduğu dövrdən bu günə qədər ardıcıl şəkildə müəyyən lobbilərin, xüsusilə də, erməni təəssübkeşlərinin təzyiqi ilə üzləşib: "Yaqland AŞPA-nın baş katib olduğu dövrdə bu təzyiqlər daha da artıb və kəskinləşibsə, bu, onun Azərbaycana qarşı xüsusi neqativ münasibətindən irəli gələn məsələdir. Azərbaycanın AŞPA-da fəallığı da bir çoxlarına xoş gəlmir və görünür, bu səbəbdən də, baş katib indi də 46-cı maddənin tətbiqi və nəticədə, Azərbaycanın AŞPA-dan xaric olunması tələbi ilə çıxış edir.

### Fazil Mustafa: "AŞPA-nın Azərbaycana qarşı davranışları məqsədyönlü qaralama kampaniyasıdır"

Millət vəkili Fazil Mustafa da bizimlə söhbətində AŞPA-da Azərbaycana qarşı qərəzli münasibətin yalnız Yaqland deyil, Yaqlandın arxasında duran erməni lobbisinin düşüncələrinin dayandığını bildirdi: "Çünki bunu dilə gətirəndə adama bir sual verərlər: Ermənistan AŞPA-nın üzvü olan Azərbaycanın 20 faiz torpağını işğal edib. Eləcə də, Gürcüstanın və Ukraynanın əraziləri işğal olunub. Bununla bağlı işğalçı dövlətlərə sanksiya tətbiq etmisinizmi? Bunlara qarşı bu cür tərbiyəsizlik eləməyi bacarmısanmı? Yox. Elə isə niyə Azərbaycana qarşı edirsən? Konkret əməlinə görə, azadlıqdan məhrum edilən bir nəfər buraxılmayıb, ona görə? Lap buraxıldı. Münasibət dəyişəcəkmi? Yaqland sənin Azərbaycana qarşı münasibətin dəyişəcəkmi? Yox. Dəfələrlə ölkə Prezidenti tərəfindən əfv fərmanları verilib və minlərlə insan azadlığa qovuşub. "Siyasi məhbus" adlandırılan şəxslərin müəyyən hissəsinin əfvi nəzərdə tutulub və həyata keçirilib. Sonra nə dəyişib? Münasibətdə bir dəyişiklik olubmu? Yox. Bir dəfə Ermənistana qarşı sanksiya tətbiq olunubmu? Yox. Belə bir vəziyyətdə AŞPA-nın Azərbaycana qarşı davranışları məqsədyönlü qaralama kampaniyasıdır. Ona görə də, bununla bağlı öz mövqeyimizi ortaya qoyaraq, dirəniş göstərməliyik".

### Qərəzli yanaşmalar AŞPA-da ciddi böhran yarada bilər

İspaniya hökumətinin Kataloniya bölgəsində yüzlərlə insana qarşı zor tətbiqi ilə müşahidə olunan davranışı nədənsə insan hüquq və azadlıqlarının pozulması deməк deyil, amma bir nəfər Azərbaycan vətəndaşının polisə müqavimət və iğtişaşlar törətməkdə günahkar bilinərək, konstitusiyanın müvafiq maddəsi ilə azadlıqdan məhrum edilməsi Azərbaycanda insan hüquqlarının pozulması, siyasi məhbus problemi kimi qələmə verilir. Təkcə Kataloniya hadisələri deyil, bütün Avropada xalqların müstəqillik tələbi ilə meydanlara çıxması daxili güc strukturlarının təzyiqi ilə yatırılır və separatçılara qarşı mübarizə kimi qiymətləndirilir. Amma müharibə şəraitində olan Azərbaycanın torpaq iddiasında olan işğalçılarla, 1 milyon insanı öz yurd-yuvalarından didərgin salan, dinc əhalini, minlərlə insanı vəhşicəsinə qətlə yetirən, Xocalı şəhərində əsrin ən dəhşətli soyqırımını təşkil edən təcavüzkarlarla 25 il davam edən mübarizəsi separatçılarla mübarizə kimi dəyərləndirilmir. Müsahiblərimizin də qeyd etdiyi kimi, İlqar Məmmədov azadlığa burxılarsa, bu zaman nə dəyişəcək? Avropa Şurasının Azərbaycana qarşı qərəzli münasibətimi dəyişəcək, yoxsa ikili yanaşma prinsiplərində dönüş olacaq? Sözügedən məhbusun azadlıqdan məhrum edilməsi 2013-cü ilə təsadüf edir, lakin Azərbaycan artıq 16 ildir ki, AŞPA-nın üzvüdür və bu tipli ədalətsizliklərlə, mütəmadi olaraq qarşılaşır. Yaqland və onunla həmfikir olan parlamentarilərin ermənipərəst mövqeyi dəyişməzdir və bundan sonra erməni maraqlarından çıxış etməyəcəklərini düşünmək belə doğru olmaz. Hər bir müzakirə, hər bir tövsiyə və o cümlədən, tənqid yalnız ölçüsündə olanda, ifrata varmayanda və qərəzlə qarışdırılmayanda faydalı ola bilər. Avropa Şurası, bütövlükdə rəhbərliyi ayrı-ayrı ölkələrə qarşı münasibətdə ikili standart yanaşmalar, xüsusi təzyiq mexanizmləri tətbiq edərək, həmin ölkələri bu təşkilatdan bezdirmək və uzaqlaşdırmaq kimi arzuolunmaz yoldan çəkinməlidir. Çünki belə təşəbbüslər təşkilatın özünü qısa zamanda çox sürətlə ciddi böhrana və süquta apara bilər.

***İnam HACIYEV***

## Kamran Əliyev: Biz İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ilə əməkdaşlıqdan qarşılıqlı şəkildə faydalanırıq

Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq, ölkəmiz 2003-cü ildən başlayaraq, korrupsiya qarşı mübarizə sahəsində bütün beynəlxalq təşəbbüslərə qoşulub. Azərbaycan Respublikası həmin ildən etibarən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Antikorrupsiya Şəbəkəsi ilə də səmərəli əməkdaşlıq edir. İqtisadiyyat sahəsində çox vacib qurum olan OECD, eyni zamanda, bu təşkilatın sıralarında birləşən ölkələrdə həm dövlət qurumlarında, həm də özəl sektorda şəffaflığın təmin edilməsi sahəsində çox mühüm iş aparır. Ona görə də Azərbaycan bu qurumla əməkdaşlıqdan çox faydalanır və bu fayda qarşılıqlıdır.



AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası baş prokurorunun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev oktyabrın 25-də jurnalistlərə müsahibəsində deyib.

Kamran Əliyev bildirib ki, Azərbaycan İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına öz töhfəsini verir. Belə ki, bu dövr ərzində Azərbaycan bu təşkilatda üç monitorinq mərhələsini uğurla başa vurub. Yəni, ölkəmiz antikorrupsiya qanunvericiliyinin vəziyyəti, tətbiqi və icrası ilə bağlı üç monitorinq dəyərləndirməsindən uğurla keçib. Hazırda Azərbaycan IV monitorinq raundu üzrə dəyərləndirmə prosesindədir. Eyni zamanda, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin altı əməkdaşı region ölkələrinin antikorrupsiya qanunvericiliyinin tətbiqi ilə bağlı müxtəlif dəyərləndirmələrə cəlb edilib.

Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında keçirilən "Korrupsiya cinayətlərinin istintaqı və cinayət təqibi: cinayət yolu ilə əldə edilmiş gəlirlərin müsadirəsi, əmlakın bərpası və prokurorların müstəqilliyi" mövzusunda beynəlxalq tədbirdə regionda yerləşən 20-dən çox ölkənin prokurorluq və korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumlarının 70-ə yaxın təcrübəli əməkdaşının iştirak etdiyini vurğulayan Kamran Əliyev bildirib ki, bu görüş ölkələrimizin qanunvericiliyini, hüquq ənənələrini öyrənmək üçün mühüm imkan yaradır. "Bu görüşlər çərçivəsində regionumuzda yerləşən ölkələrin hüquq mühafizə orqanlarının məsul əməkdaşları ilə ikitərəfli görüşlərimiz də nəzərdə tutulub. Həmin görüşlər zamanı konkret olaraq, Baş İdarə tərəfindən istintaq olunan cinayət işləri ilə əlaqədar göndərilmiş hüquqi yardımların bu və ya digər ölkələrdə icrası vəziyyəti ilə maraqlanmaq və onları daha da sürətləndirmək üçün imkanlar əldə edəcəyik", - deyə Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi vurğulayıb.

## Erkan Özoral: "İkinci Şopinq Festivalının keçirilməsi ilk festivalın öz hədəfinə çatdığını göstərir"

Azərbaycan son illər qeyri-neft sektorunun inkişaf etdirilməsi və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində uğurlu addımlar atmaqdadır. Azərbaycana səfər edən xarici turistlərin sayının artması, atılan addımların uğurlu nəticəsinin sübutudur.



AZƏRTAC xəbər verir ki, bu sözləri festivalın saytına Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoral deyib.

"Bakı Şopinq Festivalı ölkənin daha da tanınması üçün önəmli təsir vasitəsidir. Üstəlik, festival zamanı tətbiq olunan qiymət tənzimləmələri də satışın artımına vasitəçi olmaqda, ölkə iqtisadiyyatına töhfə verməkdədir. Qısa müddət ərzində artıq ikinci Şopinq Festivalının keçirilməsi, ilk festivalın uğurunu, onun hədəfə çatdığını göstərir", - deyən səfir qeyd edib. Diplomat əlavə edib ki, bu istiqamətdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın da iştirakı ilə dövlət başçılarımızın açılışını edəcəyi Bakı-Tbilisi-Qars dəmiryolu xətti də bölgədə turizmin daha da inkişafına önəmli töhfə verəcək.



## ASQIRAN AĞIZA TÖVBƏ YOXDUR...

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

**Azərbaycanda müxalifətçilik deyərkən, assosiasiyalarda, yəni ictimai rəydə dərhal hay-harayçılıq, satqınçılıq və xəyanətkarlıq fikirləri yada düşür. Əslində, ictimai rəyi qınamaq da olmur. Ona görə ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra xalq azadlığı hərəkatından ayrılan bir kəsim insan, məhz müxalifətçi adı altında gələcəyini maddi cəhətdən, bəli, məhz maddi cəhətdən təmin edəcəyini düşündü. Yəni ortada ideoloji prinsip yox idi, vardısa da, o da uzağı, bir neçə nəfərdə...**

Əbəs deyil ki, elə milli azadlıq hərəkatından başlayaraq, satqınçılıq və xəyanətkarlıq cücərtiləri yaranmağa başlamışdı və hazırda da həmin faktlar arxivlərdə qalmaqdadır. Misal üçün, Kremldən hərəkat daxilinə sızdırılmış DTK agentləri, "sedmoy" və "devyatıy otdel"lərin qulluqçuları o zamankı "Lenin meydanı" qarşısına toplaşmış on minlərlə kütlənin qarşısına çıxıb elə bəlağətli çıxışlar edirdilər ki, adam baxanda, sanırdı ki, daha bunlardan o yana vətənsevər şəxslər olmayacaq! Amma sonradan...

Sonradan məlum oldu ki, müxalifətçi partiya sədrlərinin çoxu elə həmin o "sedmoy" və "devyatıy otdel"lərin agentləriymişlər. Ən təəccüblüsü də budur ki, həmin adamlar indi də mitinqlərdə-filanda, məhz "Lenin meydanı"ndakı kimi çıxış edirlər. Eyni "təfəkkür", eyni sifətlər, eyni sözlər və eyni şüarlar...

Elə götürək, AXCP sədri Əli Kərimlini. Məsələ ondadır ki, bu adamın lideri olmuş rəhmətlik Əbülfəz Elçibəy vaxtilə onu "komsomolçu" adlandırmışdı. Özü də, elə-belə yox. Yəni universitetdə təhsil aldığı vaxtlar tələbə özəkləri barədə məlumatları DTK-ya, bilavasitə Ə.Kərimli çatdırırmış! Qısası, bu adam agentliyi boynuna alaraq, müstəqillik üçün təhsillərini, gələcəklərini təhlükə altına atan gəncləri beş quruşa satmaqla məşğuluymuş. Təəssüf ki, Elçibəy sonradan bu faktları gözardı edib, onu özünə müşavir təyin etdi...

Sabiq Müsavat başqanı İsa Qəmbər də Ə.Kərimlidən geri qalanlardan olmayıb. Onun, bilavasitə "KQB" agenti kimi nömrəsi də bəllidir. Yanılmıramsa, 5041 idi. Nemət Pənahlı, İbrahim İbrahimli, Cəmil Həsənli və daha kimlər-kimlər dəfələrlə Kremlə cani-dildən nökərçilik edib, əsl azadlıq aşiqlərini bada veriblər. Sübutu da var, təsdiqi də!

Vaxtilə DTK tərəfindən ABŞ-ın Vaşinqton Kitabxanasına "elmi araşdırmaçı" kimi göndərilmiş C.Həsənli "Məhsul"da 300-500 nəfərin qarşısına çıxıb "uca xalqım" xitabı ilə özünü az qala Nitsşedən, Oşodan da artıq filosof hesab edir. Halbuki bu nəcabətsiz ünsür agentura şəbəkəsinə qoşulmamışdan qabaq el-oba arasında "uğursuz student" və "mal oğrusu" kimi də tanınırmış. Adını da qoyub müxalifətçi və Ə.Kərimli kimi sərsəmə siyasi kuklalıq etməklə baş qatır.

Ümumiyyətlə, belə dırnaqrarası müxalifətçi "liderciklərə" baxarkən, ağla gələn həm də budur ki, bəlkə də onları qınamağa dəyməz. Çünki öyrəncəlidirlər. Bir vaxtlar "KQB"-yə agentlik ediblər, indi də erməni xüsusi xidmət orqanlarının nəzarəti ilə fəaliyyət göstərən bir sıra erməni lobbi təşkilatlarına işləyirlər. Yaqland, Ştrasser, "Freedom Hosuse", "Amnesty İnternasional", "HRW", nə bilim mister, senyor, fon və s. o qədər itətöklər var ki, Azərbaycanımızın inkişafını gözügötürməyənlər arasında. Ona görə də, belə sözügedən "liderciklərə" baxdığımız zaman, köhnə bir atalar misalı yada düşür, ancaq bir az ora-burası rəndələnməklə - asqıran ağıza tövbə yoxdur...

Bu baxımdan, həftə yeddi, mən səkkiz stadiona yığışıb hay-haray salmağın bunlara bir xeyri var. Sabah erməni anaları ağızlarına tulapayı atacaqlar ki, 2018-ci ilə qədər bir az da hürsünlər. Yoxsa ki, bunlardan başqa nə hacət gözləməyə dəyər ki...

# Naxçıvan şəhərində yeni istehsal müəssisəsi fəaliyyətə başlayıb



***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev deyib: "Sahibkarlığın inkişafı Azərbaycanın ümumi inkişafının əsas şərtidir". Bu gün muxtar respublikada sahibkarlıq davamlı dövlət qayğısı ilə əhatə olunub. Daxili tələbatı ödəyən, keyfiyyətli və ixracyönümlü məhsul istehsal edən müəssisələrin yaradılması istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, oktyabrın 25-də "Cahan Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin istilik panelləri və dam örtükləri istehsalı müəssisəsi istifadəyə verilib.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak edib. "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqının sədri Vüqar Abbasov tədbirdə çıxış edərək deyib ki, muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün geniş imkanlar yaradılıb. Müasir texnologiyaların tətbiqi və qabaqcıl idarəetmə təcrübəsindən istifadə rəqabətədavamlı məhsul istehsal edən müəssisələrin yaradılmasına və keyfiyyətli məhsul istehsalına imkan verir. Muxtar respublikada istilik panellərinə və dam örtüklərinə olan tələbat nəzərə alınaraq "Cahan Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən istilik panelləri və dam örtükləri müəssisəsi yaradılıb. Yeni müəssisə daxili tələbatı ödəməklə yanaşı, həm də geniş ixrac imkanlarına malikdir. Vüqar Abbasov sahibkarların fəaliyyəti üçün yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikada daxili tələbatı ödəyən və ixracyönümlü məhsul istehsal edən yeni müəssisənin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək deyib: Bu gün Azərbaycan müstəqil ölkədir. Hər bir müstəqil ölkədə isə ərzaq təhlükəsizliyinin təmin olunması, sənayenin inkişafı, yerli istehsal hesabına daxili tələbatın ödənilməsi, yeni iş yerlərinin açılması və daxili bazarın qorunması qarşıda duran əsas vəzifələrdir. Ölkəmizdə bazar iqtisadiyyatının tətbiq olunması öz bəhrəsini vermişdir. Muxtar respublikada qeyd olunan sahələrin inkişafı diqqətdə saxlanılır, Sahibkarlığa Kömək Fondunun kreditləri və sahibkarların öz vəsaitləri hesabına yeni istehsal sahələri yaradılır, daxili tələbat ödənilir, xaricə valyuta axınının qarşısı alınır, sahibkarlıq müəssisələrinin ixrac imkanları genişləndirilir. Bu gün istifadəyə verilən müasir istehsal müəssisəsi də Sahibkarlığa Kömək Fondunun krediti və müəssisənin gəliri hesabına yaradılmışdır.



Ali Məclisin Sədri deyib: Bu gün muxtar respublikada dövlət tikintisinin həyata keçirilməsi, əhali tərəfindən yeni mənzillərin tikilməsi, eləcə də istehsal və xidmət sahələrinin yaradılması dam örtüklərinə və istilik panellərinə olan tələbatı artırmışdır. İstifadəyə verilən istilik panelləri və dam örtükləri müəssisəsi keyfiyyətli məhsul istehsalına və daxili tələbatın tam ödənilməsinə imkan verəcəkdir. Keyfiyyətli və rəqabətədavamlı məhsul istehsal edən müəssisələrin yaradılması sahibkarlığın inkişafında başlıca şərtdir. Ona görə də istehsal müəssisələrində müasir avadanlıqlar quraşdırılmalı, keyfiyyətli xammaldan istifadə olunmalı və keyfiyyət amilinə ciddi diqqət yetirilməlidir. Fəaliyyətə başlayan hər bir müəssisə həm muxtar respublika əhalisini keyfiyyətli məhsullarla təmin etməli, həm də xarici bazarlara məhsul çıxarmalıdır. Bu gün muxtar respublikada yaradılan şərait sahibkarlıq müəssisələrinin xarici bazarlara çıxış imkanlarını artırır. Sahibkarlar bu imkanlardan səmərəli istifadə etməli, keyfiyyətli məhsul istehsalına və yerli mütəxəssislərin hazırlanmasına diqqət artırılmalıdır. Mütəxəssis hazırlığı keyfiyyətli məhsul istehsalında başlıca şərtdir. Muxtar respublikadakı peşə məktəblərində və



sahibkarlıq müəssisələrində yaradılan şərait mütəxəssis hazırlığı üçün geniş imkanlar açır.

Ali Məclisin Sədri deyib: Bu gün ölkəmizdə sahibkarlığın inkişafı üçün hərtərəfli şərait yaradılmışdır. Ölkə başçısı Ümummilli Liderimizin yolunu uğurla davam etdirir, hər il sahibkarlıq fəaliyyəti ilə bağlı qərarlar qəbul olunur, müvafiq Sərəncamlar imzalanır. Həmçinin bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq istehsal müəssisələri dövlət tərəfindən özəlləşdirilərək sahibkarlara verilmişdir. Bu da sahibkarlıq sinfinin formalaşmasına və onların səmərəli fəaliyyət göstərməsinə geniş imkanlar açır. Ona görə də sahibkarlar fəaliyyətlərini daha da gücləndirməli, daxili tələbat yerli istehsal hesabına ödənilməli, sahibkarlıq müəssisələrində ixracyönümlü məhsul istehsal olunmalı, ölkəmizə valyuta axını təmin edilməlidir. Yeni müəssisələrin qurulması həm də yeni iş yerlərinin açılması deməkdir. İş yerlərinin açılması isə məşğulluğun təmin olunmasına və insanların yaşayış səviyyəsinin yaxşılaşmasına xidmət edir. Bir sözlə, dövlət-sahibkar münasibətləri, sahibkarların fəaliyyətinin tənzimlənməsi sahəsində görülən işlər ölkəmizin dayanıqlı inkişafını təmin edir. Muxtar respublikada da aid təşkilatlar sahibkarların fəaliyyətinə və istehsal olunan məhsulların ixracına hərtərəfli köməklik göstərməlidirlər.

Ali Məclisin Sədri deyib: Bəzən sahibkarlar yalnız daxili bazarın tələbatını ödəmək üçün məhsul istehsal edirlər. Bu, sahibkarlığın inkişafına və müəssisələrin fəaliyyətinin genişləndirilməsinə mane olur. Hər bir sahibkar bilməlidir ki, yeni texnologiyalar tətbiq olunmadan, ixracyönümlü məhsul istehsal etmədən müəssislərin inkişafına və keyfiyyətli məhsul istehsalına nail olmaq mümkün deyil. Ona görə də sahibkarlar yeni texnologiyaların tətbiqini və ixracyönümlü məhsul istehsalını daim diqqətdə saxlamalıdırlar.

Ali Məclisin Sədri yeni istifadəyə verilən müəssisədə istehsal olunan məhsulların daxili tələbatı ödəyəcəyinə və xarici bazarlarda layiqli yer tutacağına əminliyini bildirib, təşkilatçılara təşəkkür edib və müəssisəyə fəaliyyətində uğurlar arzulayıb.

Sonra Ali Məclisin Sədri açılışı bildirən lenti kəsib.

Məlumat verilib ki, müəssisənin yaradılmasına 6 milyon 560 min manat vəsait sərf olunub, 5620 kvadratmetr sahədə dam örtükləri, istilik panelləri və boyama istehsalı xətləri yaradılıb, müasir avadanlıqlar quraşdırılıb. İstilik panelləri sahəsinin gücü ayda 9500 metr panel və 8000 metr alüminium radiator, dam örtükləri sahəsinin gücü isə ayda 250 min kvadratmetr metal dam örtüyüdür. Standartların tələblərinə uyğun istehsal olunan məhsulların 20 faizi yerli tələbatı tam ödəyəcək, 80 faizi isə ölkəmizin digər bölgələrində və xarici bazarlarda satışa çıxarılacaqdır.

Binada iş otaqları, iclas zalı, mətbəx, torna və dülgər emalatxanaları, tikinti materiallarının satış mərkəzi, hazır və ehtiyat hissələri anbarları da istifadəyə verilib, 120 nəfər işlə təmin olunub, işçilər üçün xidməti otaqlar yaradılıb. Müəssisədə təhlükəsizlik tədbirlərinə də diqqət artırılıb, video-müşahidə sistemi quraşdırılıb, işçilər pulsuz nahar yeməyi, xüsusi geyim forması və nəqliyyatla təmin olunublar.

## Plastik boru, profil və aksesuarlar istehsalı müəssisəsi yaradılır

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Cahan Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində yeni yaradılacaq plastik boru, profil və aksesuarlar istehsalı müəssisəsinə də baxıb. Bildirilib ki, əsas tikinti işləri başa çatdırılmış müəssisədə Türkiyə, Çin və Tayvan istehsalı olan tam avtomatlaşdırılmış avadanlıqlar quraşdırılacaq, 38 istehsal sahəsi və müasir laboratoriya istifadəyə veriləcək. Gücü ayda 1500 ton olacaq müəssisədə qapı-pəncərə profilləri, polipropilen əsaslı kompozit və sadə içməli su, eləcə də polietilen suvarma boruları, lambir, saydinq və aksesuarlar, müxtəlif boru fitinqləri olmaqla 7 növdə və 160 çeşiddə məhsul istehsal olunacaq, daxili tələbat ödənilməklə yanaşı, geniş ixrac imkanları da yaradılacaq. Müəssisədə 285 yeni iş yeri açılacaq.

Ali Məclisin Sədri müəssisədə istehsal olunacaq məhsulların nümunələrinə baxıb, keyfiyyətli məhsul istehsalı, işçi-sahibkar münasibətlərinin tənzimlənməsi, sahibkarlar arasında əlaqələrin gücləndirilməsi ilə bağlı aid təşkilatlara tapşırıqlar verib.

# Bakı rusiyalıların noyabr bayramlarında səyahətə yollanmağa hazırlaşdığı top-5 MDB şəhərləri sırasındadır

Yaşayış yerinin bronlanması ilə məşğul olan Tvil.ru saytı (Rusiya) noyabrda bayram günlərində rusiyalıların MDB-nin və yaxın xaricin hansı şəhərlərinə yollanacaqlarını təyin edib. AZƏRTAC xəbər verir ki, həmin şəhərlərin reytinqi 2017-ci il noyabrın 3-dən 7-dək yaşamaq üçün mehmanxanaların, mənzillərin və qonaq evlərinin bronlanmasına dair müraciətlər barədə məlumatlara əsasən təyin edilib. Noyabrın 4-də bu ölkədə xalq həmrəyliyi günü qeyd olunur. Bu səbəbdən noyabrın 4-6 tarixlərində rusiyalıları ardıcıl 3 gün istirahət gözləyir. Noyabrın ilk dekadasında rusiyalı turistlərin səyahətə yollanmağa hazırlaşdığı top-5 MDB şəhərləri arasında Bakı da var. Verilən məlumatlara görə, rusiyalı turistlər noyabr bayramlarında orta hesabla 3,5 gün Azərbaycan paytaxtında dincələcək və hər gün orta hesabla 2,9 min rubl xərcləyəcəklər. Qeyd edək ki, Tvil.ru saytı Rusiyanın otel, mənzil və qonaq evlərinin onlayn bronlanması üzrə aparıcı saytıdır. Hər ay 2 milyondan artıq insan bu sayta müraciət edir, istirahət və səyahətə aid 50 min variantdan birini seçib bron edir.





## Vətən daşına dönük çıxanlar

RƏFİQƏ

***Bu aksiomadır ki, erməni xüsusi xidmət orqanlarına xidmət edən hər kəs, şübhəsiz ki, Azərbaycanın düşmənidir. O zaman ermənilərlə dostluq edən "Milli Şura"çılar kimdir? Nə araşdırmaq lazımdır, nə də fikirləşmək. Cavab bəllidir. Çünki Vətən daşına dönük çıxanlar bu ölü qurumda toplaşıb. Bir də Vətən bir millətin üzərində yaşadığı coğrafiyadır. Torpağı vətən edən millətin onda yaşadığı tarix və onunla qurduğu mədəniyyət əlaqələridir. Vətən millətin doğulduğu, sığındığı və maddi-mənəvi varlığını davam etdirdiyi yerdir. Vətən millətin evi, millət də vətəndə yaşayan ailədir. Vətən bizi qoruyan anadır. Çünki biz onun sayəsində inkişaf edir və yetkinləşirik. Vətən gözümüzün dünyada ilk gördüyü torpaqdır.***

Ancaq bu gün "Milli Şura"nın satqın kadrosu olan AXCP sədri Əli Kərimli üçün satılmaq adi hal alıb. Çünki bu ölü qurum xəyanət kadrolarının cəm olduğu bir üfunət yeridir. Bu yerdə xəyanət kadrosunun ən parlaq "simaları" toplaşıb və elə zənn edirlər ki, hay-küy salmaq güclü olmaqdır. Anlamaq lazımdır ki, mənasız işlərlə ölkəmizi müstəqillik yolundan, güc və qüdrətli olmaqdan döndərmək mümkün deyil. Ona görə ki, Azərbaycan adlı gəminin güclü və bacarıqlı kapitanı var.

Bir də, hər bir cinayətkar qanun qarşısında cəzasını almalıdır. Çünki antimilli, anti-Azərbaycan təbliğatları, erməni lobbisinin sifarişlərini yerinə yetirməklə respublikamızda təxribat törətmək, qarşıdurma yaratmaq cəhdləri, dələduzluqları və Vətənə xəyanət əməlləri uzun müddət davam edə bilməz.

Sonda isə, elə də uzağa getməyib, AXCP-nin keçmiş sədri Əbülfəz Elçibəyin qardaşı Almurad Əliyevin Ə.Kərimli haqqında dediyi bir fikrini xatırlatmaq yerinə düşərdi. Elçibəyin ölümü ilə bağlı aparılan istintaq ərəfəsində o demişdi: "Əbülfəz Elçibəyə xəyanət edənlərin hamısı cəzalandırılıb. Yalnız bir nəfər cəzasız qalıb..."

Kimdir o bir nəfər? Əlbəttə ki, satqın vətəndaş, xəyanətkar Ə.Kərimli! Sirr deyil ki, günahkarlar əvvəl-axır öz cəzalarını alırlar. Biz bunu hazırda Leyla Yunusun və Xədicə İsmayılın fonunda görürük. Ancaq bu gün həmin cinayətkarlara "ana-bacı" deyib, onların hesabına siyasət yürüdən Ə.Kərimlinin vaxtıdır. Hər bir cinayətkar qanun qarşısında cəzasını almalıdır. Çünki antimilli, anti-Azərbaycan təbliğatları, erməni lobbisinin sifarişlərini yerinə yetirməklə respublikamızda təxribat törətmək, qarşıdurma yaratmaq cəhdləri, dələduzluqları və Vətənə xəyanət əməlləri uzun müddət davam edə bilməz.

# Yeni Azərbaycan Partiyası cəmiyyətdə aparıcı rolunu gündən-günə möhkəmləndirməkdədir

## YAP Şabran rayon təşkilatında partiyanın yaranmasının 25 illik ildönümü qeyd edilib





Dünən YAP Şabran rayon təşkilatının tədbirlər planına əsasən, partiyanın yaranmasının 25 illik yubileyi ilə bağlı tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan YAP Şabran rayon təşkilatının sədri Mehdi Balabəyov ötən 25 il ərzində partiyanın şərəfli yol keçdiyini bildirib: "Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə yaradılan YAP müasir Azərbaycanın inkişafının əsas dəstəkçisinə çevrilib. Natiq qeyd edib ki, Ümummilli Liderimiz Heydər Əliyevin layiqli davamçısı ölkə Prezidenti, YAP Sədri İlham Əliyevin apardığı qətiyyətli siyasət nəticəsində Azərbaycanın dayanıqlı inkişafı təmin edilib və ölkəmizin beynəlxalq mövqeyi möhkəmlənib. YAP ölkəmiz üçün ən çətin məqamda, hərc-mərclik və özbaşınalığın hökm sürdüyü, xalqın müstəqillik haqqında ümidlərinin və arzularının puça çıxdığı və milli dövlətçiliyimizin mövcudluğunun təhlükə altında olduğu bir vaxtda yaradılıb. Azərbaycan xalqının gələcəyinin qayğısına qalan ziyalıların Ulu Öndər Heydər Əliyevə müraciətindən sonra Onun Naxçıvanda bu partiyanı yaratması haqda xəbər tezliklə ölkəmizin ən ucqar guşələrinə də çatmışdı. Yeni Azərbaycan Partiyasının yaradılmasını qısqanclıqla qarşılayanların təzyiqinə, bu təşəbbüsün müəlliflərinin məruz qaldığı təqiblərə, müxtəlif hədə-qorxulara baxmayaraq, insanlar YAP sıralarına daxil olmaqdan çəkinmirdilər, çünki onlar türk dünyasının Böyük Oğlu, bu partiyanın Banisi Heydər Əliyevi xalqımızın və müstəqil Azərbaycan dövlətinin xilaskarı kimi görürdülər. YAP öz intellektual səviyyəsi, sosial bazası və Ümummilli Liderin siyasi kursu sayəsində qısa müddətdə ölkənin aparıcı qüvvəsi kimi formalaşaraq, ümumxalq partiyasına çevrildi. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində tezliklə Azərbaycanda siyasi sabitlik bərqərar oldu və ölkənin parçalanması təhlükəsi aradan qalxdı".

Tədbirdə millət vəkili YAP Şabran rayon təşkilatının idarə heyətinin üzvü Tahir Süleymanov, rayon icra hakimiyyətinin başçısı, YAP Şabran rayon təşkilatının idarə heyətinin üzvü Novruz Novruzov, YAP Şabran rayon təşkilatının şura üzvü Tofiq Əmrahov və başqaları çıxış edərək, vurğulayıblar ki, Ulu Öndərin ideyaları Prezident İlham Əliyev tərəfindən ardıcıl surətdə reallaşdırılır. Çıxış edənlər Azərbaycanda dövlətçiliyin qorunmasında, ölkəmizin tərəqqisində YAP-ın rolunu xüsusi vurğulayaraq, qeyd ediblər ki, Ulu Öndər Heydər Əliyevin ideyalarına sadiq qalaraq, bu partiyanın sıralarına qoşulmuş 700 mindən artıq insan partiyanın Sədri, Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, ölkəmizin inkişafına mühüm töhfələr verirlər.

Tədbirdə partiyanın fəaliyyətində fərqlənən partiya fəallarına fəxri fərman və qiymətli hədiyyələr, həmçinin, YAP sıralarına yeni daxil olanlara üzvlük biletləri təqdim edilib.

Tədbir rayon və respublika incəsənət xadimlərinin iştirakı ilə bayram konserti ilə davam edib.

**R.KAMALQIZI**



# Xaçmaz rayonunda YAP-ın yaradılmasının 25 illik yubileyi münasibətilə tədbir keçirilib

Dünən Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasibətilə YAP Xaçmaz rayon təşkilatı növbəti tədbirini rayon mədəniyyət işçiləri ərazi ilk partiya təşkilatında keçirib. Tədbiri giriş sözü ilə ərazi ilk partiya təşkilatının sədri YAP Xaçmaz rayon təşkilatının idarə heyətinin üzvü Könül Əsgərova açaraq, Azərbaycanın ictimai-siyasi həyatında özünəməxsus yeri və rolu olan YAP-ın yaranmasından ötən 25 ildə çox mühüm və əhəmiyyətli yol keçməsi barədə geniş məlumat verib.

Tədbirdə Xaçmaz rayon təşkilatının nəzdində fəaliyyət göstərən Heydər Əliyev İdeoloji Mərkəzinin direktoru Cavad Mehmanov, şura üzvü Pakizə Mehdiyeva, Yeni Azərbaycan Partiyası Xaçmaz rayon təşkilatının sədr müavini Abasyar Heydərov və digərləri çıxış edərək, Azərbaycan dövlət müstəqilliyinin bərpa edilməsi istiqlalımızın dönməzliyinin təmin olunması və hazırda həyata keçirilən geniş və çoxşaxəli islahatlar, məhz Yeni Azərbaycan Partiyasının qurucusu, müstəqil Azərbaycan dövlətinin banisi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu bir daha tədbir iştirakçılarının nəzərinə çatdırıblar.

Tədbirdə çıxış edən YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev YAP-ın təsis olunduğu tarixi gün - 21 noyabr 1992-ci ili Azərbaycanın ən yeni tarixinin mühüm və əlamətdar günlərindən biri olduğunu, partiyanın yaranması ilə müstəqil Azərbaycanın siyasi həyatında yeni bir mərhələ başlandığını, partiyanın bəyan etdiyi əsas ideoloji prinsiplərdən, müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq və vətənçilik, varislik, yaradıcı təkamül, konstruktiv əməkdaşlıq, vətəndaş həmrəyliyi, sosial ədalət prinsipləri, ümumilli səciyyə daşıdığını Ulu Öndərin bünövrəsini qoyduğu siyasətin Möhtərəm Prezidentimiz, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən uğurla davam etməsindən danışıb. Natiq qeyd edib ki, müstəqil Azərbaycanın inkişafında və YAP-ın 25 illik fəaliyyətində ölkəmizin Birinci Vitse-Prezidenti Mehriban xanım Əliyevanın xüsusi xidmətləri danılmazdır.

**R.HÜSEYNOVA**

# "Nar" şəbəkənin təkmilləşdirilməsi işlərini davam etdirir



Göstərdiyi rabitə xidmətlərini davamlı olaraq təkmilləşdirməklə öz abunəçilərinə sərfəli qiymətlər təklif edən "Nar" şəbəkənin keyfiyyətinin daha da yüksəldilməsi istiqamətində apardığı işləri uğurla davam etdirir. Xüsusilə bölgələrdə 3G şəbəkəsində aparılan təkmilləşdirmə işləri çərçivəsində ATM (Asynchronous Transfer Mode) texnologiyalı transmissiya xətləri müasir tələblərə cavab verən və daha keyfiyyətli rabitəni təmin edən IP (Internet Protocol) texnologiyasına əsaslanmış xətlərlə əvəz edilmişdir. Görülən təkmilləşdirmə işlərinin uğurlu nəticəsi kimi, Aran, Lənkəran və Quba-Xaçmaz iqtisadi rayonları üzrə ATM xətlərindən IP texnologiyalı transmissiya xətlərinə keçid baş vermişdir. Baza stansiyalarının IP transmissiya zolağı boyunca "Son məntəqələr arasındakı tutum" (Last Mile Capacity) ötən illə müqayisədə şəbəkə üzrə ümumilikdə 53% artmışdır.

Qeyd edək ki, 3G IP texnologiyası istifadəçilərə daha mükəmməl və sürətli verilənlər bazası resurslarından faydalanmaq və daha keyfiyyətli səs xidmətlərindən istifadə imkanları yaradır. Adı çəkilən texnologiya informasiya ötürmə kanallarında genişlənməni təmin edir, ötürülən və qəbul edilən məlumatın son istifadəçiyə qısa zaman kəsiyində, yüksək keyfiyyətlə çatdırılmasına şərait yaradır. Məhz bu texnologiyanın tətbiqi ilə hər bir istifadəçiyə düşən sürət meyarı daha da yüksəlir, informasiyanın paylanması zamanı ortaya çıxa biləcək maneələr aradan qaldırılır və internet resurslarına çıxış imkanlarının istifadəçilər arasında bərabər şəkildə paylanmasına şərait yaradılır. 3G IP təyin edilmiş məlumat dəstini bəlli bir istiqamət üzrə istifadəçilər arasında paylayır. Bu isə, öz növbəsində, abunəçilərin internet üzərindən məlumat bölüşmələri, fərqli məlumat məhsullarının daşınması, məlumatın yüklənməsi və qəbulunun daha şəffaf surətdə həyata keçirilməsinə şərait yaradır.

3G IP texnologiyası sayəsində zəng zamanı "Uğurlu zəng nisbəti" (Call Setup Success Rate) xüsusiyyətinin təkmilləşməsi özünü bariz şəkildə nümayiş etdirir ki, bu da zəng müddətində əlaqənin yaranmasında ola biləcək xəta əmsalını minimuma endirir. Hazırda "Nar" 3G şəbəkəsinin 94%-i tamamilə müasir IP transmissiya texnologiyası üzərindən xidmət göstərir və bununla da istifadəçilər keyfiyyətli mobil rabitə xidmətlərindən faydalana bilirlər. Bakı və Abşeron yarımadası ərazisində isə 3G mobil şəbəkəsi tam olaraq IP texnologiyalı transmissiya xətləri üzərindən fəaliyyət göstərir. "Nar" şəbəkəsi və baza stansiyaları haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

"Azerfon" şirkəti 21 mart 2007-ci ildə "Nar Mobile" ticarət nişanı ilə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilmişdir. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilmişdir. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə vermişdir. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim etmişdir. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6000-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Dövlət İdarəçilik Akademiyası ilə Macarıstan Dövlət Qulluğu Universiteti arasında memorandum imzalanıb



Budapeşt şəhərində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə Macarıstan Dövlət Qulluğu Universiteti arasında rəhbər dövlət idarəçiliyi kadrlarının fasiləsiz təlimi, dövlət qulluqçularının hazırlığı strategiyasının reallaşdırılması sahəsində əməkdaşlığa dair memorandum imzalanıb. Tədbirdə Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov, Azərbaycanın Macarıstandakı səfiri, professor Vilayət Quliyev, Macarıstanın yüksək vəzifəli rəsmiləri, DİA-nın elmi təşkilat şöbəsinin müdiri, dosent Rəcəb Rəhimli, səfirliyimizin əməkdaşları iştirak ediblər. İmzalanma mərasimindən sonra "Səmərəli idarəçilik və davamlı inkişaf naminə dövlət qulluqçularının hazırlanması: Azərbaycanın təcrübəsi" mövzusunda məruzə ilə çıxış edən akademik Urxan Ələkbərov Azərbaycanın tarixi, ölkəmizdə gedən siyasi-iqtisadi proseslər barədə geniş məlumat verib. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş, hazırda Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasi- iqtisadi islahatlar barədə danışan rektor Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində yeri və rolunu qeyd edib. O, ölkəmizin innovativ tərəqqisi ilə bağlı BMT, Dünya Bankı və digər nüfuzlu beynəlxalq qurumların qiymətləndirmələrinə əsaslanan təhlilləri də iştirakçıların diqqətinə çatdırıb. Rektor vurğulayıb ki, ölkənin qısa müddətdə iqtisadi və sosial sahədə qazandığı yüksək nailiyyətləri, XXI əsrin çağırışlarının həllinə yönəlmiş dünya əhəmiyyətli təşəbbüsləri, ildən-ilə artan beynəlxalq nüfuzu Azərbaycanı bir çox istiqamətlərdə regional və qlobal liderə çevirib. Son 10 ildə ölkəmizdə davamlı inkişaf üçün iqtisadi baza yaradılıb. Azərbaycan son illərdə bir çox davamlı inkişaf göstəricilərinə və sosial indikatorlara görə "Böyük iyirmilik" və "Böyük yeddilik" ölkələrinin əksəriyyətini üstələyir. Bu uğurların kökündə yalnız yaxşı idarəçilik və dövlət institutlarının, vətəndaş cəmiyyətinin və özəl sektorun fəaliyyətinin kombinasiyası dayanır. Bu istiqamətdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti olduqca əhəmiyyətlidir. Dövlət İdarəçilik Akademiyasının fəaliyyəti barədə danışan Urxan Ələkbərov qeyd edib ki, burada dərs deyən müəllim heyətinin əksəriyyəti ölkənin siyasi idarəçiliyində mühüm rol oynayır. Dövlət İdarəetmə Sistemi istiqamətində aparılan islahatları və qazanılan uğurları xatırladan rektor bildirib ki, bu gün Azərbaycanda çevik dövlət qulluğu sistemi formalaşıb. O, Ümummilli Lider Heydər Əliyevin ölkədə Dövlət İdarəetmə Sisteminin formalaşması və dövlət qulluğunun inkişafı istiqamətində misilsiz fəaliyyətini qeyd edib, Prezident İlham Əliyevin müstəqil Azərbaycanda dövlət idarəçiliyinin innovativ inkişafında xidmətlərindən söz açıb. Rektor ölkədə insan potensialının formalaşdırılması, bu siyasətin tərkib hissəsi kimi dövlət qulluqçularının fasiləsiz hazırlığı sisteminin təkmilləşdirilməsi sahəsində görülən tədbirlərin uğurlu nəticələri və əhəmiyyəti barədə fikirlərini də görüş iştirakçıları ilə bölüşüb. Akademik ölkəmizdə həyata keçirilən tədbirlərin insan potensialının keyfiyyətinin yüksəldilməsi ilə yanaşı, dinamik inkişaf edən cəmiyyətin tələblərinə cavab verən dövlət idarəçiliyi sisteminin qurulmasında da mühüm rol oynadığı qeyd edilib.

**ZÜMRÜD**

# YAP qələbə və zəfərlər partiyasıdır!



Dünən Sumqayıt Telekommunikasiya Qovşağının konfrans zalında Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatının təşəbbüsü ilə partiyanın 25 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Tədbirdə YAP Sumqayıt şəhər təşkilatı sədrinin gənclərlə iş üzrə müavini Elmar Xəlilov, Sumqayıt Telekommunikasiya Qovşağının rəisi Nəriman Salmanov, şəhər təsərrüfatı ərazi ilk partiya təşkilatlarının sədrləri və qonaqlar iştirak ediblər. Tədbiri giriş sözü ilə STQ-nin rəisi Nəriman Salmanov açaraq YAP-ın yaranma tarixindən, partiyanın əldə etdiyi nailiyyətlərin ciddi tarixi və siyasi əsaslarının mövcudluğundan bəhs edib.

Çıxış edən YAP Sumqayıt şəhər təşkilatı sədrinin gənclərlə iş üzrə müavini Elmar Xəlilov Ulu Öndərimiz Heydər Əliyev yolu ilə irəliləyərək çox şərəfli yol keçən, dövlətçilik prinsiplərinə söykənən Yeni Azərbaycan Partiyasının ölkəmizin ən ləyaqətli insanlarını öz sıralarında birləşdirdiyini, müstəqil Azərbaycan dövlətinin qurulması yolunda geniş və çoxşaxəli fəaliyyət göstərdiyini vurğulayıb.

Tədbirdə digər çıxış edənlər Yeni Azərbaycan Partiyasının qurucusu və memarı Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdə Azərbaycanın böyük və şərəfli yol keçdiyini və bu gün o şərəfli yolun Prezident İlham Əliyev Cənabları tərəfindən uğurla davam etdirildiyini vurğulayıblar.

Natiqlər, həmçinin, ölkə Prezidenti İlham Əliyevin son dövrlərdə Sumqayıta davamlı səfərlərindən, şəhərdə bir-birinin ardınca yeni və müasir, yüksək texnologiyalar əsasında yaradılan sənaye müəssisələrindən, mühüm sosial obyektlərin istifadəyə verilməsindən, şəhərin sürətli sosial-iqtisadi inkişafı və nümunəvi sənaye mərkəzinə çevrilməsindən, Sumqayıt şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcovun rəhbərliyi ilə şəhərin yeni sosial-iqtisadi proqram və layihələr əsasında yenidən qurulmasından danışıblar.

**R.RƏSULOV**



# YAP Qusar rayon təşkilatında Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi münasibətilə tədbirlər davam edir



***Dünən YAP Qusar rayon təşkilatının Mədəniyyət Mərkəzi ərazi ilk partiya təşkilatında Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasibətilə tədbir keçirilib. Tədbiri giriş sözü ilə YAP Siyasi Şurasının üzvü, rayon təşkilatının sədri David İbramxəlilov açaraq, Yeni Azərbaycan Partiyasının 25 illik fəaliyyəti dövründə xalqımızın taleyüklü problemlərinin həllində müstəsna xidmətlərindən danışıb.***

Müstəqil Azərbaycanın inkişafında böyük xidmətləri olan YAP-ın keçdiyi inkişaf yolundan bəhs edən rayon təşkilatının sədri bildirib ki, YAP monolit birliyi və böyük sosial bazası olan bir partiyadır. Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasını yarandığı gündən Heydər Əliyev Partiyası kimi tanımışdır.

Natiq sonra çıxışında Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursa sadiq qalan ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin rəhbərliyi altında partiyanın gələcəyə inamla irəlilədiyini diqqətə çatdırıb. D.İbramxəlilov ötən dövr ərzində, Azərbaycanın siyasi və iqtisadi müstəqilliyinin daha da möhkəmlənərək, ölkəmizin beynəlxalq aləmdə mövqeyinin gücləndiyini qeyd edib.

Tədbirdə iştirak edən YAP rayon təşkilatının şura üzvü, rayon təşkilatının qadınlar şurasının sədr müavini Neva Abdurahmanova çıxışında Yeni Azərbaycan Partiyasının Azərbaycan xalqının həyatında mühüm rol oynayan xilaskar partiya olduğunu diqqətə çatdırıb:"Biz, qələbələr partiyası olan Yeni Azərbaycan Partiyasının təmsilçiləri olaraq, həmrəyliyin və tolerantlığın müqabilində ölkəmizdə sabitliyin qorunmasında yorulmadan, əzmlə çalışmaqda davam edəcəyik".

Tədbirdə digər çıxış edənlər bildiriblər ki, Yeni Azərbaycan Partiyası dünyaşöhrətli siyasətçi və təcrübəli dövlət xadimi Ulu Öndər Heydər Əliyevin yaratdığı güclü bir siyasi təşkilatdır. Prezident İlham Əliyevin Sədrliyi ilə bu gün YAP Azərbaycan cəmiyyətinin mütərəqqi ideyalarla inkişafına xidmət edir. Yeni Azərbaycan Partiyası siyasi arenaya daxil olduğu gündən həmişə böyük qələbələr qazanıb. Çünki YAP həmişə cəmiyyətimizin maraqlarını özünün ən ümdə vəzifəsi kimi qəbul edib. Bu qüdrətli siyasi təşkilat həmişə dövlətimizin, xalqımızın rifahı və inkişafı naminə bütün gücünü səfərbər edib.

**NƏZAKƏT**

# Uğursuzların yeni mitinq ağrısı: ziyanlı ilə yalançının davası

***Siyasətçinin ən önəmli məcazlarından biri səhvlərdən nəticə çıxarmaq, həmin səhvləri təkrarlamamaq bacarığıdır. Əgər siyasətçi səhvləri sıralayırsa və ən pisi, onları təkrarlayırsa, bu, primitiv düşüncənin, hədsiz ambisiyaların və gerçəyi anlamamağın, şərtlərin diktəsinin başa düşməməyin, marazm həddinə yüksəlmiş ambisiyalarla natamamlıq kompleksinin göstəricisidir.***



AXCP və "Milli Şura" oktyabrın 28-də yeni mitinq keçirmək istəyirlər. Məkan bəllidir - "Məhsul" stadionu. Son iki mitinqi fiasko ilə başa çatan, meydana 1000 nəfəri belə toplaya bilməyən, uğursuzluğun səbəbini "interneti kəsmişdilər"dən tutmuş, "mitinqə gələnləri Bakıya girişdə tuturdular" kimi yalanlarla ört-basdır etməyə çalışan Əli Kərimli zavallı açıqlamaları, psevdoalim Cəmil Həsənli isə az qala burlesk bəyanatları ilə gündəmdədir.



Fasiləsiz qarşıdurmalar, şəxsi və təşkilati maraqlar uğrunda didişmələr AXCP-ni rəqibi Müsavatla müqayisədə müxalifətdəki radikalların nəzərində önə çıxardığı üçün, deyəsən, müsavatçıların tənələrinə duruş gətirə bilməyən Arif Hacılı, Azərbaycan siyasətinin kapusininə çevrilmiş bu şəxs önləyici addım atmaq, zədələnmiş nüfuzunu bərpa etmək, olmayan populyarlığını qaytarmaq fikrinə düşüb.

Oktyabrın 28-i üçün nəzərdə tutulmuş mitinq ərəfəsində trivial məntiqlə, AXCP və Müsavatın liderləri aralarındakı umu-küsünü unudub bir araya gəlməli, müvəqqəti də olsa birləşməli, zahiri əməkdaşlıq görüntüsü yaratmalıydılar. Amma Əli Kərimlinin ambisiyaları ilə Arif Hacılının hikkəsi bəhs etdiyimiz ssenarini mümkünsüz edib. Əvəzində Müsavat "müstəqil" davranmaq, radikal müxalifətin liderlik kürsüsünü ələ keçirmək fikrinə düşüb.

"AXCP göz önündəcə xalqın cəbhəsinə çevrilir və mən də adi bir vətəndaş kimi bundan olduqca məmnunam. Bunu mənə irad tutanlar və gözü götürməyənlər gedib..."

Bu sözlər "Azərbaycan Ziyalılar Birliyi" adlı qurumun rəhbəri olduğunu iddia edən - əslində, bir para kağızlara və açıqlamalara görə, belədir - Eldəniz Quliyev Facebook profilində yazıb.

65 yaşlı E.Quliyev ssenarist, yazıçı və kinorejissordur. Yəni yaradıcı insan, ziyalı sayılmalıdır. Di gəl, onun AXCP ilə bağlı fikirləri, daha doğrusu reallıqdan çox kənar, Əli Kərimlinin rəhbərlik etdiyi strukturun indiki siyasi tənəzzülünü və sosial aqoniyasını görmək istəməyən şüarçılığını ən yaxşı halda çox pis ssenarili repriz hesab etmək olar. Azərbaycanı tərk edən və siyasi qaçqın statusu almaq, siyasi sığınacağa yiyələnməyə çalışan bir dəstək şəxslə fəal danışıqlar aparan, Meydan TV və hələlik təşkilati imkanları yalnız Facebook-dakı radikal, lümpenləşmiş qrupları və səhifələri maliyyələşdirməklə məşğul olan strukturlardan növbəti "qrant" adı ilə vəsait almağa çalışan Eldəniz Quliyevin missiyası bəllidir.

O, Azərbaycan ziyalılarını bir araya gətirmək yox, ətrafında olan şəxslərlə bahəm Əli Kərimliyə mürid təki xidmət etmək amalındadır.

Xidmət də hələlik alınmır, çünki Əli Kərimli maliyyə ayıran Qərb strukturları üçün, biznes dili ilə desək, "investisiya baxımından perspektivli layihə" sayılmır. Bunu müsavatçılar belə, hiss ediblər. Məsələn, Rahid Ümid bildirib: "Şəxsən mən siyasətin bütün kuluarlarını gəzib-dolaşmış, hər mövsümü bir siyasətçinin kölgəsi altında keçirən adamların dediklərini dedi-qodudan başqa heç nə saymıram. Bah, AXCP "xalqın cəbhəsi" imiş. Güldürməyin xalqı özünüzə".

Eldarxan Quluzadə daha sərt mövqe tutub: "Müsavatçılar cəbhəçilərdən daha savadlıdır. Hətta qarşısında əks mövqe görəndə belə, dinləyirlər. AXCP üzvlərinə isə bir irad bildirən kimi, təhqirə keçirlər. Müsavatçılar müxalifətin savadlı kəsimini təşkil edirlər".

Müsavatçı Surxay Kərimli isə E.Quliyevi ziyalı yox, "ziyanlı" adlandırıb.

"Amerika kolası içməklə, dini qaragüruhu başına toplayıb iki cüt-bir tək adamla "mitinq keçirirəm" iddiasında bulunmaqla xalqın cəbhəsi olmaq mümkün deyil", - bunu da E.Quliyevə yazıblar. Eynən Müsavat Partiyasının sədri, daha doğrusu, bu qurumun öz lüğəti ilə yazsaq, "Müsavat Divanının başqanı" Arif Hacılı kimi.

Partiyanın funksionerlərindən biri Yadigar Sadıqov qətiyyətlə bəyan edir: "Müsavat Partiyasının yürüşünə qanunsuz qadağaya etiraz olaraq Divan noyabrın 3-də Bakı Şəhər İcra Hakimiyyətinin qarşısında piket keçirmək barədə qərar qəbul edib. Bu dəfə icazə verməsələr də, keçirəcəyik". İlk baxışdan qətiyyətli, qayə baxımından konkret, məzmun sarıdansa hakimiyyətə ünvanlanmış sərt messic tipli açıqlamadır.

Müsavat Partiyasının rəhbərliyinin qətiyyətini - bəs nədir, "verməsələr də, keçirəcəyik" ifadəsinin məna yükü bunu ehtiva edir - habelə, bu partiya funksionerlərinin radikal müxalifət düşərgəsinə kontrol rıçaqlarına sahibliyini, ən başlıcası isə, Arif Hacılının həmin düşərgənin lideri sayılmasının hər müsavatçıda ilıq, doğma və şəksiz hiss olmasını əyan edəcək bir bəyanat olmalıdır guya. O da "maraqlı"dır ki, Müsavatın keçirmək istədiyi piketə partiyanın sədri Arif Hacılı qatılmayacaq. Səbəb - "başqan özünü narahat hiss edirmiş".

Partiya başqanının, yəni Arif Hacılının müşavirinin çağırışını firqənin sosial şəbəkələrdə aktiv olan və bunu siyasi fəaliyyət sayan mənsubları böyük virtual coşqu ilə qarşıladılar, "like"ları sıraladılar, internet hücumu üçün söz yığınından ibarət əsləhə topladılar və özlərini, yəqin ki, həmin anda ən azı Həştadsər savaşındakı xürrəmilər kimi hiss etdilər.

Amma nə edəsən ki, AXCP mənsubları son illərdəki amplualarına sadiq qalaraq müsavatçıların bu qətiyyətini sarkazm, ironiya və rişxəndlə qarşıladılar. Daha sadə desək, müsavatçıları ələ salıb dolamağa başladılar. "Müsavatın hünəri var AXCP kimi mitinq etsin?!" ifadələri səsləndi və bununla da müsavatçılara xatırladıldı ki, sən demə, AXCP və "Milli Şura" bir araya gəlib "Məhsul" stadionunda mitinq keçirirsə, həmin mitinqə də ən uzağı 1000 adamı yığırsa, Müsavat heç bunu da edə bilməz və məzkur səbəbdən də piketlə kifayətlənmək məcburiyyətindədir.



Baba Qorqud Y'qin ki, Partiya marağlı olmayacağ ki, çox Adam iştirak etsin.
Beğen · Yanıtla · 1 · 18 saat

Yadigar Sadiqov Piketdə partiya üzvləri iştirak edəcək
Beğen · Yanıtla · 2 · 17 saat

Afgan Naxmetov Ay rey bildiren qardashlar lideri qoruyarlar ikide bir ayagindan dartmazlar.
Beğen · Yanıtla · 2 · 17 saat

Huseyn Kerimli Müsavatın hünəri var, AXCP kimi mitinq etsin..?
Beğen · Yanıtla · 2 saat

Kenan Memmedov Piket keçirməyə nə var ki... Piket üçün lazım olan insan sayı 50 nəfərdir. Müsavat Partiyası onsuzda bundan artiq insan toplaya bilmir.
Beğen · Yanıtla · 2 saat · Düzenlendi

Huseyn Kerimli Müsavat funksionerləri gəlisnlər AXCP nin qərargahına və mitinq keçirmək üçün təcrübə toplasınlar...
Beğen · Yanıtla · 2 saat



"Piket keçirməyə nə var ki?! Piket üçün lazım olan insan sayı 50 nəfərdir. Müsavat Partiyası, onsuz da, bundan artıq insan toplaya bilmir" yazan kim, "Müsavat funksionerləri gəlsinlər AXCP-nin qərargahına, mitinq keçirmək üçün təcrübə toplasınlar" rişxəndini bəyan edib gülən kim.

Bəzi "cəbhəçi"lər isə Y.Sadıqovun çağırışının, daha doğrusu Müsavat başqanı Arif Hacılının bu istəyinin "müxalifətin maraqları", "hakimiyyətlə mübarizənin strategiyası və taktikası" baxımından zərərli olduğunu vurğulayırlar. Həmin kəslərin fikrincə, lokal mübarizə Müsavata yaraşmır. "Siyasi iradəni ortaya qoyub mitinqləri birləşdirmək əhali arasında müxalifəti dəstəkləməyə gətirib çıxara bilər" kimi illüziyalar, sən demə, reallıqdır.

AXCP və Müsavatın birgə mitinq keçirməsi mümkündür - bir şərtlə ki, "siyasi ölü" Əli Kərimli ilə ölkə siyasətinin tragikomik obrazına çevrilmiş Arif Hacılı ambisiyalarını, komplekslərini və fobiyalarını unudalar.

Bu isə mümkün deyil, çünki adıçəkilən şəxslərin hər biri özünü müxalifətin şəksiz lideri sayır.

Mərkəzi Amerikada populyar deyim, beləcə, Azərbaycanda aktuallaşır: "Bolivar ikisinə dözməz".

İllah da ki, cəbhəçilərlə müsavatçılar bir-birlərinə az qala nifrət edirlər.

Son illərdə fəaliyyətləri praktiki olaraq sosial şəbəkələrdə qeybət ilə küçə davası arasında barraj vuran AXCP ilə Müsavatın mənsublarının "mehriban" münasibətlərini anlamaq üçün bu iki partiyanın mənsublarının açıqlamalarını oxumaq yetər.

Cəbhəçilər müsavatçıları satqınlıqda və apatiyada, müsavatçılar isə cəbhəçiləri satqınlıqda və intriqalarda suçlayırlar. İş o yerə çatıb ki, onlar bir-birilərini ən ağır ifadələrlə təhqir etməyi siyasi fəaliyyətin rutinliyi saymağa başlayıblar. Yaponiyada ənənəvi xalq yaradıcılığı olan "kabuki"ni, yəni "kölgələr teatrı"nı xatırladan, səhnədə kölgələrin oyuna bənzəyən bu şouda daha maraqlı anlar da olur.

Məsələn, sabiq səfir, indisə "müxalifətçi və demokrat" olmuş Arif Məmmədov AXCP-yə yaxınlaşmaq, Əli Kərimli ilə əlaqələr qurmaq üçün az qala dəridən-qabıqdan çıxır. Çifayda: Əli Kərimlinin "silahdaşları", yəni sosial şəbəkələrdə "trol"luq edənlər üçün Arif Məmmədov ən yaxşı halda "KQB-DTK agenti, Avropaya sığınmış insanları satan məxluq"dur. Qarşı tərəf, yəni müsavatçılar da borclu qalmırlar. Məsələn, Vaşid Salehzadə adlı şəxs AXCP və Müsavat mənsubları arasındakı "virtual savaş"a qatılaraq yazıb: "Sizin Xalq Cəbhəsi dediyiniz əslində "Yurd" qrupudur. Əli Kərimli Müsavatı gözdən salmaq üçün əsl cəbhəçiləri "Yurd"un əli ilə partiyadan didərgin saldı".

Belə iqtibasları az qala sonsuzluğa qədər davam etdirmək olar. Amma lüzum görmürük, çünki indi patoloji yalanlarla boş vədlərin bir-birilərini sıraladığı şüarlarla çıxış edən AXCP və Müsavat liderlərinə hələ də inanan, yaxud da inandığını göstərməyə çalışan şəxslər qruplaşıblar, dəstələrə bölünüblər və bir-biriləri ilə fasiləsiz münaqişədədir.

Oktyabrın 28-də Bakıda, "Məhsul" stadionunda keçirilməsi nəzərdə tutulan mitinq ərəfəsində AXCP və Müsavat arasında qarşılıqlı ittihamların təhqirlərə çevrilməsi həm də ölkədəki radikal müxalifət düşərgəsinin vəziyyətini dolğun əks etdirir.

***Elçin Alıoğlu***
***Milli.Az***

# Əli Kərimlinin “Yurd”u çökür

***Daxili çəkişmələr müxalifət daxilində həlli mümkün olmayan problemlər yardıb. Özlərinin də etiraf etdikləri kimi vəziyyətdən çıxış yolu da yoxdur. Çünki hər bir partiya sədri özünü digərindən üstün sayır və güzəştə getmək iddialarından əl çəkməyi özünə qarşı həqarət hesab edir. Bu baxımdan, düşərgədaxili konfliktlər hər gün ötən günə nisbətən bir qədər də dərinləşir. AXCP sədri Əli Kərimlinin “Müsavat müxalifət partiyası adını doğrulda bilmədi və bu səbəbdən də, Müsavatın hansı yönümlü olduğunu aydınlaşdırmaqda çətinlik çəkir” deməsi, ortadakı qarşıdurma alovunun üstünə benzin atmaq effektini verib. Müsavat funksionerləri mətbuatda və sosial şəbəkələrdə Ə.Kərimlini ağ yuyub qara sərirlər. Təhqir və söyüşlər adi hala çevrilir. Ə.Kərimli isə mövqeyindən geri çəkilməyib. Əksinə, sosial şəbəkələrdə daha geniş və sərt ittihamlarla müsavatçıları tənqid və təhqir edib. Təbii ki, iki partiya arasında gərginliyin artması yeni qopmaların olacağından xəbər verir. Təcrübə bunu təsdiq edir.***

### Müxalif partiyalarda yeni istefalar gözlənilir

Hər dəfə müxalif partiyalararası qarşıdurmalar gərgin fazaya daxil olarkən, istefalar və qopmalar baş verir. Məhz bu amilə söykənərək, bəzi siyasi ekspertlər 2018-ci ildə keçirilməsi nəzərdə tutulan prezident seçkilərinə qədər bəzi müxalif partiyaların fəaliyyətlərini dayandırmağa məcbur olacaqlarını iddia edirlər. Bəs səbəb nədir? Niyə müxalifət partiyaları formalaşa bilmir? “Müasir Müsavat” Partiyasının sədri Hafiz Hacıyev Ə.Kərimli, Arif Hacılı, İsa Qəmbər və digər dağıdıcı partiya sədrlərinin fəaliyyətlərinin araşdırılmasına zərurət olduğunu bildirib: “Bu adamların fəaliyyətləri ciddi şəkildə araşdırılsa, kifayət qədər cinayət əməlləri üzə çıxar. Ə.Kərimli öz liderini zəhərləyib öldürən adamdır. Elçibəy xəstəlik yatağında olanda, Ə.Kərimli “Azadlıq” qəzetində onun ünvanına qeyri-etik yazılar yazdırırdı. Elçibəyin cənazəsi gələn gün Ə.Kərimlinin sifarişi ilə “Azadlıq” qəzetinin manşetində onu təhqir eləmişdilər. İndi belə bir adamdan nə gözləmək olar? Ə.Kərimli də İ.Qəmbər də xarici qüvvələrə işləyirlər, oradan maliyyə alırlar və bu yolla ölkədə qarışıqlıq salmağa çalışırlar. Hesab edirəm ki, radikal müxalifətin xariclə əlaqələri, bank hesabları, yaxın ətrafının maliyyə qaynaqları da araşdırılmalıdır. Əgər dərindən araşdırma aparılsa, onları həbsxanaya atmaq üçün kifayət qədər əsas tapmaq olar”.

### Cəmil Həsənli acı reallığı həzm etməyə hazırlaşır

Baş verənlər təsdiq edir ki, dağıdıcı müxalifət heç də müstəqil deyil. Yəni partiya sədrlərinin əlləri hansısa xarici qüvvələrin ciblərindədir. Atdıqları addımlar, verdikləri qərarlar “əl əli yuyar, əl də dönüb üzü yuyar” prinsipinə əsaslanır. Xaricdən maddi-mənəvi dəstək göstərilməsi müqabilində dağıdıcı ünsürlər ölkədə məkrli və pozucu planlar həyata keçirməyə cəhd göstərirlər. Düzdür, bu kimi cəhdlər uğursuzluqla nəticələnir. Çünki pozucu qüvvələr üçün Azərbaycanda geniş imkan yoxdur. Digər tərəfdən, xalq onları qətiyyətlə rədd edir. Bir sözlə, dağıdıcı müxalifətin pozuculuğa və təxribatlara hesablanan siyasəti, bir daha onu deməyə əsas verir ki, onlar xalqa və dövlətə düşmən kəsiliblər. Yəni öz məkrli palanlarını və eləcə də, xarici qüvvələrin pozuculuğa yönələn sifarişlərini yerinə yetirmək üçün şeytanla belə əməkdaşlıq münasibətlərindən çəkinməzlər. Dağıdıcı müxalifətin cəmiyyət tərəfindən qəbul edilməməsinin konkret səbəbləri var. Başlıcası, erməni lobbisindən aldıqları maliyyə yardımlarına görə, ermənilərin işğalçılıq siyasətlərindən danışmamaları, ölkənin milli mənafeyini özlərinin və xidmət etdikləri qüvvələrin korporativ maraqlarına qurban verməyə hazır olmaları, məqam və nəqsədlərini anlamayan bir neçə gənci təxribatlar törətməyə təhrik etmələri və bu kimi səbəblərlə əlaqələndirmək olar. Qərb dövlətlərinin Bakıdakı səfirliklərində keçirdikləri görüşlər və Azərbaycanın maraqlarının satılmasına cəhdlərin göstərilməsi, dağıdıcı müxalifətin xalqın gözündən düşməsinin başlıca səbəbləri sırasına aid etmək olar.

Maraqlıdır ki, siyasi cəhətdən fəaliyyətsiz və bu baxımdan sosial bazası olan müxalifət, xüsusilə də, AXCP, “Milli Şura” və Müsavat hər fürsətdə aksiyalar keçirməyə cəhd göstərirlər. Daha doğrusu, artıq bir neçə dəfə mini-aksiyalar planlaşdırıblar. Ancaq uğursuzluq yenə də sözügedən qurumlar üçün qaçılmaz olub, aksiyalar biabırçılıqla yekunlaşıb. Çünki mitinqlərdə cox az sayda insan - 500-600 nəfər iştirak edib, onların da böyük əksəriyyəti qohum-əqrəbaları və partiya üzvləri olub. Hadisələrin inkişafına əsaslanaraq, demək olar ki, “Milli Şura”nın planlaşdırdığı növbəti aksiya uğursuzluqla nəticələnəcək. Bu reallığı dərk etdiyindəndir ki, “Milli Şura”nın formal sədri Cəmil Həsənli növbəti mitinqin təxirə salınması haqqında düşündüklərini və bu barədə yaxın günlərdə mövqe bildirəcəklərini söyləyib.

**İ.ƏLİYEV**

## Ermənistan ordusunda növbəti qanlı insident baş verib

Azərbaycanın işğal olunmuş Ağdərə rayonu istiqamətində yerləşdirilən Ermənistan ordusunun taborlarından birində növbəti qanlı insident baş verib. AZƏRTAC xəbər verir ki, gecə saatlarında iki hərbi qulluqçu arasında başlayan mübahisə sonrada qan tökülməsinə səbəb olub.

Təhqirlərə dözməyən Artur Xaçaturyan xidmət yoldaşına avtomat silahdan atəş açıb. A.Xaçaturyanın güllələdiyi hərbi qulluqçunun öldüyü, yaxud hələ yaşadığı barədə məlumat əsgərin valideynlərindən də gizlədilir. Hadisə ilə bağlı Ermənistan Müdafiə Nazirliyinin istintaq idarəsi tərəfindən araşdırma başlayıb.

# Dağıdıcı müxalifətin “Milli Şura” dövrü başa çatır

*Mitinq fiaskosu düşərgəni tam iflasa uğradır*



Dağıdıcı müxalifətin uğursuzluqla nəticələnən mini aksiyaları can verməkdə olan “Milli Şura”nın sonuncu akkordu da hesab etmək olar. Buna baxmayaraq, yenə də həyasızcasına növbəti mitinq keçirəcəklərini bildirirlər. Əslində, mitinq yox, adi bir aksiya təsiri bağışlayan bu “qışqır-bağır” qondarma “şura”da cəm olan aqressiv müxalifət partiyaları arasında dərin kök salmış siyasi nifaqı, onların bu yolda bir addımlamalarının qeyri-mümkünlüyünü və ən əsası, sosial baza və elektoratdan tam məhrum olduqlarını bir daha nümayiş etdirməkdir.

### Dağıdıcı müxalifətin növbəti miskinliyi

Dağıdıcı müxalifət əvvəllər də keçirdiyi icazəli və ya icazəsiz aksiya ilə nə qədər miskin vəziyyətdə olduğunu nümayiş etdirib. Dəfələrlə təsdiq olunub ki, sosial bazadan tamamilə məhrum olan dağıdıcı müxalifətin çağırışlarını cəmiyyətimiz qəbul etmir. Müxalifətin dağıdıcı qanadı sosial bazadan, ona görə məhrum olub ki, Azərbaycanın milli maraqlarına qarşı çıxır, antiazərbaycançı şəbəkənin tapşırığını yerinə yetirir. Məhz ona görə də, insanlar bu partiyalara etimad göstərmir ki, onlar cəmiyyətə hansısa yenilik təqdim etmək qabiliyyətində deyillər. Amma meydan eyforiyası ilə yaşayan müxalifət başbilənləri bu reallığı dərk etməkdən hələ də uzaqdırlar. Əgər dərk etsəydilər, cəmi bir neçə yüz nəfəri cəlb edə bildikləri aksiyalarla özlərini biabır etməzdilər.

Son mitinq dağıdıcı müxalifət rəhbərlərinin sivil siyasi keyfiyyətlərdən çox uzaq olduqlarını bir daha göstərdi. Əslində, qüruru, mənliyi olan siyasətçi bu cür biabırçılıqlardan sonra siyasətdən əl çəkməli və bir daha mitinq həvəsinə düşməməlidirlər. Siyasi şərhçilər də sözügedən məsələyə münasibət bildirərək vurğulayıblar ki, “Milli Şura” adlanan qurum Azərbaycanın dövlət müstəqilliyini həzm edə bilməyən qüvvələrin layihəsidir.

### Araz Əlizadə: “Ölkədə müxalifət yox, bir sıra insanları aldadan şəxslər var”

Sözügedən məsələyə münasibət bildirən ASDP sədri, millət vəkili Araz Əlizadə bildirib ki, ölkədə müxalifət yox, bir sıra insanları aldadan şəxslər var. Onun sözlərinə görə, insanların arasında onlara inam yoxdur: “Zorla insanlara nəyisə yedirtmək mümkün deyil. Bu insanlar həmin adamlardır ki, 1988-ci ilin meydan hərəkatında camaatın başını divara vurdular. 90-cı illərdə insanları qırğına verdilər, 92-ci ildə dövlət çevrilişilə hakimiyyətə gəldilər. 93-cü ildə xalqı vətəndaş müharibəsi qarşısında qoyub qaçdılar. 2003-cü ildə camaatı çölə çıxarıb, özləri qaçıb gizləndilər. Bu yerdə “yalançı çoban” məsələsi yada düşür. İnsanları nə qədər aldatmaq olar? Burada günahkar təkcə özləridir. Həmin insanlar nə təmizlənir, nə də tövbə edirlər”.

### Elçin Mirzəbəyli: “Milli Şura” adlanan qurum Azərbaycanın dövlət müstəqilliyini həzm edə bilməyən qüvvələrin layihəsidir”

Politoloq Elçin Mirzəbəyli isə mətbuata açıqlamasında bildirib ki, “Milli Şura” adlanan qurum Azərbaycanın dövlət müstəqilliyini həzm edə bilməyən qüvvələrin layihəsidir: Onun sözlərinə görə, bu baxımdan özünə, dövlətinə, bayrağına hörmət edən və milli qüruru olan heç bir kəs bu layihənin iştirakçısı olmaq istəməz: “Bu baxımdan, adıçəkilən qurumun növbəti mitinqinin də fiaskoya uğraması təəccüblü deyil. Dağıdıcı düşərgə uzun illərdir ki, ideoloji boşluq yaşayır. Aqressiya və kin elektoratı minimuma enən bu düşərgənin liderlərinin gözünü elə qapayıb ki, şeytanla belə əməkdaşlığ etməyə hazırdılar. Necə ki, edirlər. Azərbaycanın konstitusion dövlət quruluşuna qarşı çıxış edən qüvvələrlə əməkdaşlıq bu düşərgənin liderlərinin gerçək mahiyyətini ortaya qoyur. Mitinqdə ermənipərəst qüvvələrin, işğalçı Ermənistanın maraqlarına və silahlı qüvvələrimizin döyüş qabiliyyətinin üzərinə kölgə salınmasına xidmət edən iddiaların dilə gətirilməsi də bunu sübuta yetirir. Görünür, Ermənistanın qatil prezidentinin BMT-nin Baş Assambleyasında susdurulması “Milli Şura”nın “başbilənləri”ni narahat edib. Mitinqdəki çıxışlardan da belə anlaşıldı ki, aksiya Sarkisyanın müdafiəsinə həsr olunub”.

### Fazil Mustafa: “İndiki dövrdə mitinq keçirmək əhalinin marağına uyğun deyil”

Böyük Quruluş Partiyasının başqanı Fazil Mustafa sosial şəbəkələr vasitəsilə fikirlərini insanlara çatdırmağı meydanlarda mitinq keçirməkdən üstün tutur: “Mitinq keçirmək olar. Amma indiki dövrdə bizim siyasi anlayışımıza görə, buna ehtiyac yoxdur. Daha ağıllı variantı sosial şəbəkələrdə aktiv rol almaqda görürəm. Məsələn, sosial şəbəkələrdə - Facebook-da, Twitter-də ən çox fikirləri yayılan, müzakirəyə çıxarılmaq baxımından bizim partiyanın rolu çox böyükdür. Ona görə özüm də birbaşa bu şəbəkələrdə fikirlərimin geniş auditoriyaya yayılmasını təmin edirəm. Çünki müasir texnologiya dövründə 5 min adamı yığıb birlikdə nəyisə ifadə etmək əvəzinə, milyonlarla insana fikirlərimizi çatdırmaq, dəstək qazanmaq, məsələlərə mövqe nümayiş etdirmək daha yaxşı deyilmi?! Buna üstünlük verirəm. İndiki dövrdə mitinq keçirmək əhalinin marağına uyğun deyil. Kiminsə soyuq və ya isti havada çölə çıxacaq halı yoxdur. Hamı evində oturub sosial şəbəkələr vasitəsilə məsələləri izləməklə məşğuldur. Bu cür real fikirləri çatdıra bilmə metodunu əvvəlki dövrlərin etiraz formaları ilə müqayisədə daha məqbul hesab edirəm. Əsas budur”.

Göründüyü kimi, “Milli Şura”nın növbəti mitinq oyunu da fiaskoya uğurayacaq və keçirilən mitinqlər də öz aralarında yola getməyən siyasətçilərin əsl simalarını bir daha üzə çıxaracaq. müxalifət düşərgəsində baş verən son olaylara nəzər salaraq, belə nəticəyə gəlmək olur ki, dağıdıcı müxalifətin “Milli Şura” dövrü başa çatmaqla yanaşı, həmçinin, növbəti mitinq düşərgə üçün daha böyük biabırçılıqlarla nəticələnəcək.

**Rəfiqə HÜSEYNOVA**

# Tahir Kərimli: "Dağıdıcı müxalifət partiyaları daxilində sağalması mümkünsüz olan ciddi xəstəlik yaranıb"

***- Tahir bəy, AXCP sədri Əli Kərimli sosial şəbəkələrdə paylaşdığı videolarda və mətbuata verdiyi açıqlamalarında real müxalifətin yalnız AXCP və "Milli Şura" olduğunu iddia edir. Sizcə, digər partiyalar hansı yönümlüdür ki?***



*Müsahibimiz Vəhdət Partiyasının sədri, millət vəkili Tahir Kərimlidir*

- Artıq dağıdıcı müxalifət partiyaları daxilində sağalması mümkünsüz olan ciddi xəstəlik yaranıb. Bu xəstəlikdən xilas olmaları da qeyri-mümkündür. Araşdırma aparıb diaqnoz qoyulsa, məlum olar ki, müxalifət başbilənlərinin mübtəla olduqları xəstəliyin adı təkəbbür, özünü və öz partiyasını sevmək, özündən üstün bilməmək, özündən yaxşısını irəli buraxmamaq və yaxşısını ləkələmək, haqqı danmaq və s. xəstəlik. Təbii ki, birinci növbədə, o, Müsavatı nəzərdə tutur. Çünki Müsavatla AXCP iki "böyük" müxalifətin təşkilatlarıdır. Yəni AXCP və Müsavat partiyalarının hər biri "ana müxalifət" olmaqlarını iddia edirlər. Bir sözlə, müxalifətdə "ana müxalifət" olmaq üçün isə biri digərini sıradan çıxarmaq istəyir. Amma bunlar başa düşmürlər ki, biri digərini pisləyəndə, elə bilirlər ki, o birisinin tərəfdarları bunun tərəfinə keçəcək. Məhz ona görə xəstəlik deyirəm ki, onu qanmırlar ki, bir-biri ilə yola getməyəndə, heç vaxt biri o birinin yanından çıxıb bu birinin yanına gəlməyəcək.

***- Əli Kərimli iddia edir ki, digər partiyalar, xüsusilə də Müsavat müxalifət mövqeyini ortaya qoymayan və özlərini doğrultmayan partiyalardır. Sizcə, Ə.Kərimlinin məntiqincə, düşərgə təmsilçiləri hansı prinsipləri doğrulda bilməyiblər?***

- AXCP ilə Müsavat arasında bu məsələ əbədi mövzudur. Yəni hər zaman həm Müsavat, həm də AXCP biri-biri haqqında xoşagəlməz fikirlər səsləndiriblər. Ümumiyyətlə, heç vaxt adları çəkilən bu iki partiya bir-biri ilə yola getməyiblər. Bunun da səbəbi birinin digərini qəbul etməməsi ilə bağlıdır. Demək olar ki, aralarında olan bu cür məsələlər onları daha da gözdən salır.

***- Sizcə, AXCP ilə Müsavat arasında bölüşə bilmədikləri maraqlar nədən ibarətdir?***

- Təbii ki, adları çəkilənlər hakimiyyətə gələ bilməzlər. Müxalifət düşərgəsini təmsil edən partiya rəhbərləri də bu reallığı çox yaxşı dərk edirlər. Belə olan halda da, öz düşərgələrində birincilik uğrunda mübarizə aparmağa başlayıblar. Yəni müxalifət düşərgəsində kim müxalifətin lideri olsun və kim daha çox özünü müxalifətçi kimi göstərsin. Bax, onlar bunun uğrunda mübarizə aparırlar.

***- Müxalifət düşərgəsində bir-birinə ünvanlanan ittihamlar və qarşılıqlı söyüşlər bütün zamanlarda mövcud olub. Bu gün isə daha gərgin xarakter alıb. Sizcə, niyə bu gün müxalifətdaxili gərgin vəziyyət daha ağır durumdadır?***

- Birinci səbəbi bunların bütün seçkilərdə uduzmaları və sosial bazalarını itirmələridir. İkinci səbəb isə odur ki, qarşıdan prezident seçkiləri gəlir və hər iki tərəf istəyir ki, öz namizədi ilə iştirak etsin. Üçüncü səbəb isə aralarında olan şəxsi ambisiyalarıdır. Məhz bu səbəbdən qarşılıqlı ittihamlar və birinin digərini gözdən salmaq kampaniyası davam etməkdədir. Vəziyyət belə davam edərsə, iddialı partiyaların əksəriyyəti sıradan çıxacaq.

***GÜLYANƏ***

# Ermənilərin "AGOS" qəzeti Əli Kərimliyə havadarlıq edir

*Yaxud Arzu Qeybulla adlı satqın AXCP sədrinə hansı üsullarla siyasi dividend qazandırır?*

**AXCP** sədri Əli Kərimlinin ətrafının ermənipərəst ünsürlərdən ibarət olmasını təsdiq edən daha bir fakt, ilk növbədə, belə qənaətə gəlməyə zəmin yaradır ki, "Milli Şura" adlı xəyanətkar qurumun əsas hədəflərindən biri də Azərbaycanın milli-dövlətçilik maraqlarına zərbə vurmaqdır. Əslində, bu barədə faktlar kifayət qədər çoxdur və hazırda təqdim etdiyimiz növbəti dəlil də bu xüsusdadır. Məsələ ondadır ki, Türkiyənin İstanbul şəhərində nəşr edilən və bu ölkədə yaşayan ermənilərə məxsus "AGOS" qəzetində gedən növbəti məqalələrdən biri, bilavasitə Azərbaycan hakimiyyətinə, dövlətçilik maraqlarına qarşı yönəlib və həmin məqalənin müəllifi adıçəkilən qəzetdə çalışan Arzu Qeybulladır.




### A.Qeybullanın "AGOS"da Azərbaycan hakimiyyətinə qarşı aşkar erməni qərəzi ilə məqalə yazması dərhal "Milli Şura" və AXCP rəhbərliyi tərəfindən alqışlanıb

A.Qeybulla hazırda istər Ermənistanda, istərsə də dünyanın müxtəlif bölgələrində fəaliyyət göstərən erməni media qurumlarında "qəhrəman" statusunda tanınmaqdadır. Ümumiyyətlə, bu fərd hər zaman ermənipərəstlik mövqeyi ilə tanınıb və "iki xalq arasında barışıq yaratmaq" adı altında düşmən dəyirmanına su tökməklə məşğuldur. Elə də uzağa getməyərək, A.Qeybullanın qondarma erməni soyqırımının tanınması istiqamətində etdiyi çıxışlarını, Xocalı soyqırımının ermənilər tərəfindən törədilməməsi iddialarını və s. bənzər çoxsaylı sübutlarını göstərə bilərik. Ümumiyyətlə, bir milli satqının bu gün Azərbaycan haqqında danışması, yazması, rəy və fikirlər bildirməsinə artıq onun haqqı olmasa da, Əli Kərimli və ətrafı onunla iş birliyi qurur, siyasi dividendlərini ermənilərə satılaraq qazanmağa cəhdlər edirlər. Əbəs yerə deyil ki, A.Qeybullanın "AGOS"da Azərbaycan hakimiyyətinə qarşı aşkar erməni qərəzi ilə məqalə yazması dərhal "Milli Şura" və AXCP rəhbərliyi tərəfindən alqışlanıb. Hətta növbəti mitinqə çağırış üçün həmin məqalədən istifadə də olunub (?!-R.N.).

Beləliklə, qondarma erməni soyqırımını tanıyan, azərbaycanlıları və ümumilikdə, türk dünyasını ermənilərə qarşı "aqressiv" olmaqda ittiham edən A.Qeybullanın Ə.Kərimli ilə birgə hərəkət etməsi "Milli Şura"nın son zamanlar aktivləşən mitinq isterikasının, haray-şivəninin arxasında dayanan erməni məkrindən xəbər verir.

### Xədicə İsmayıl Arzu Qeybullanın "AGOS" vasitəsi ilə ölkəmiz və dövlətimiz əleyhinə yazdığı məqalələri bəh-bəhlə tərifləyib - Anna Vardanyanla müştərək!

Daha bir danılmaz dəlil isə A.Qeybullanın Azərbaycan dövlətinə qarşı çıxmasına erməni bacılığının dəstəyi ilə rəvac verir. Misal üçün, digər milli satqın və xəyanətkar Xədicə İsmayıl dəfələrlə A.Qeybullanın "AGOS" vasitəsi ilə ölkəmiz və dövlətimiz əleyhinə yazdığı məqalələri bəh-bəhlə tərifləyib. Üstəlik hər ikisinin erməni bacılıqları sayılan lobbistlər dərhal sosial şəbəkələrdə həmin yazıları tirajlayıblar. Elə son fikirlərlə bağlı Anna Vardanyan adlı erməni lobbisinin fəal reaksiya verərək, A.Qeybullaya dəstəyini nümayiş etdirib. Bu, həm də belə qənaətə gəlməyə əsas verir ki, A.Qeybulla Avropada erməni lobbisi üçün əsas informasiya mənbəyidir.

Ə.Kərimli kimi Vətən xainləri isə bir danılmaz reallığı anlamağa məhkumdurlar: onlar heç vaxt öz çirkin və murdar siyasətləri ilə öz istəklərinə çata bilməyəcəklər. Əksinə, gec, ya da tez xalqın qarşısında cavab verəcəklər. Buna əmin olsunlar!

***Rövşən NURƏDDİNOĞLU***

## Sinoptiklərdən xəbərdarlıq: Havanın temperaturu 4-6 dərəcə düşəcək

Sinoptiklər hava şəraitinin dəyişəcəyi ilə bağlı xəbərdarlıq edib. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a bildirilib ki, oktyabrın 26-sı gündüz və 27-də bəzi rayonlarda qərb küləyinin arabir gücləncəyi, axşam və gecə saatlarında yağış yağacağı ehtimalı var. Havanın temperaturu oktyabrın 27-də ötən günlərlə müqayisədə 4-6° aşağı enəcək.

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, oktyabrın 25-də Füzuli rayonu Horadiz kəndinin yaxınlığında yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfdən şəxsi nümayəndənin səhra köməkçiləri Gennadi Petrika, Mixail Olaru və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun nümayəndəsi Aleksandr Nepotkritıx keçiriblər. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi şəxsi nümayəndə Anji Kaspşik, onun səhra köməkçiləri Oqnyen Yoviç, Martin Şuster və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun nümayəndəsi Patrik Farrelli aparıblar.

## Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə axtarılan 26 nəfər tutulub

Respublikanın daxili işlər orqanları tərəfindən ötən gün qeydə alınmış 113 cinayət faktından 22-nin üstü "isti izlər"lə açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə axtarılan 26 nəfər tutularaq istintaq orqanlarına təhvil verilib. Respublikanın avtomobil yollarında baş vermiş 7 yol-nəqliyyat hadisəsi nəticəsində 2 nəfər ölüb, 12 nəfər xəsarət alıb. Daxili işlər orqanları əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 7 fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 25 nəfər tutulub.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# Ulu Öndər Heydər Əliyevin Sovet dövründə milli memarlıq və rəssamlığa qayğısı

**"Heydər Əliyev Azərbaycan rəssamlıq sənətini tanıtmaq, inkişaf etdirmək və əlaqələrini genişləndirmək məqsədilə ölkə rəssamlarının toplantılarını imkan yarandıqda Bakıda keçirirdi. Məsələn, 1981-ci ildə SSRİ Rəssamlıq Akademiyasının qurultayı Moskvada deyil, Bakıda keçirildi. Heydər Əliyev qurultay nümayəndələri qarşısında parlaq nitq söylədi. Bu nitq onun rəssamlıq sənətinin mövcud vəziyyətini, inkişaf yollarını dərindən bildiyini göstərirdi. Heç əbəs deyil ki, bir müddət sonra Heydər Əliyev Moskvada olarkən, SSRİ Memarlar İttifaqının sədri ondan xahiş etmişdi ki, memarların da qurultayında iştirak edib nitq söyləsin"**

Ulu Öndər Heydər Əliyev sovet dövründə Azərbaycanın klassik memarlığının

* Bərpası, ölkədən kənarda tanıdılması və şöhrət qazanması üçün;

* Memarların adlarının əbədiləşdirilməsi və onların mükafatlandırılması üçün qərarlar qəbul edir və memarlığın inkişafı üçün əlindən gələni əsirgəmirdi.

AMEA-nın müxbir üzvü Musa Qasımlı yazır: "Məlumdur ki, 1920-ci ilin aprelindən əvvəl Azərbaycanda yalnız bir nəfər azərbaycanlı memar var idi. 70-ci illərdə isə, artıq respublikada tanınmış memarlar nəsli yetişmişdi.

Azərbaycan KP MK Bürosunun 1976-cı il 12 mart tarixli iclasında təkcə Azərbaycanda deyil, bütün Şərqdə tanınmış görkəmli memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin anadan olmasının 850 illik yubileyini qeyd etmək barədə qərar qəbul olundu. Qərara uyğun olaraq, elmi seminar və konfranslar keçirildi və xatirəsini əbədiləşdirmək üçün tədbirlər müəyyənləşdirildi. Sonralar Bakı metrosu stansiyalarından birinə onun adı verildi.

Heydər Əliyev memar və heykəltəraşlara dövlətin yüksək mükafatlarını təqdim edirdi. Məsələn, 1982-ci ildə Azərbaycan Dövlət mükafatı alanlar içərisində Ömər Eldarov, Tokay Məmmədov, Mürsəl Nəcəfov kimi görkəmli sənətkarlar var idi.

Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycanda yeni memarlıq abidələri tikildi, paytaxt şəhəri olan Bakının siması dəyişdi, dağılmış tikililərin yerini gözəl memarlıq üslubunda tikilmiş binalar tutdu, parklar salındı. Görülən işlərdən şövqlə danışan Heydər Əliyev deyirdi: "...Respublikanın paytaxtı gözəl Bakı şəhərinin küçə və meydanlarını gəzib... Lenin sarayına, "Gülüstan" şənlik sarayına, görkəmli partiya və dövlət xadimlərinin, böyük yazıçı və şairlərin çoxlu abidəsinə tamaşa etsən, Bakı metropoliteninin yeraltı saraylarına ensən, Azərbaycan memarlarının nailiyyətlərini öz gözlərinlə görüb yəqin edərsən". O daha sonra deyirdi: "Öz mənbəyini xalq yaradıcılığının, milli memarlığın zəngin xəzinəsindən, əlvan divar rəsmlərindən, ağac və daş üzərində naxışlardan, xalçaçılıq sənətindən, tətbiqi sənət nümunələrindən alan Azərbaycan təsviri sənəti və arxitekturası indi yüksək bədii, professional yetkinlik zirvəsinə çatmış, böyük mənəvi təsir qüvvəsi kəsb etmişdir".

Məşhur sənətkarlar S.Salamzadənin, T.Məmmədovun, Ö.Eldarovun yaratdıqları heykəllər, M.Hüseynov və başqalarının əsərləri Bakını bəzəyirdi. Bütün bunlar memarlığı dərindən bilən və qurub-yaratmaq həvəsi olan Heydər Əliyevin bilavasitə rəhbərliyi altında baş vermişdi.

Heydər Əliyev Azərbaycanda rəngkarlıq sənətinin inkişafına diqqət verərək, rəssamlara qayğı göstərir, onların iş və məişət şəraitlərini yaxşılaşdırır, yubileylərini keçirir, xatirələrini əbədiləşdirir, fəxri adlarla təltif edir, ölkədə və xaricdə tanınmalarına yardım göstərirdi. Heydər Əliyev Azərbaycan rəssamlıq sənətində yeni bir məktəb yaradan, milli mədəniyyəti zənginləşdirən Səttar Bəhlulzadə ilə hələ hakimiyyətə gəlməmişdən əvvəl şəxsən tanış idi, onunla görüşür və əlaqələr saxlayırdı. Onun qeyri-adiliyi, yaratdığı möhtəşəm əsərlər Heydər Əliyevi özünə cəlb etmişdi. Hətta bəziləri Bəhlulzadənin əleyhinə çıxanda Heydər Əliyev onu müdafiə etmişdi. Hakimiyyətə gəldikdən sonra Heydər Əliyev rəssama daha yaxından kömək etməyə başladı. Azərbaycan rəhbərinin Sov.İKP MK-ya ünvanladığı məktub əsasında S.Bəhlulzadə 1970-ci ildə Qırmızı Əmək Bayrağı Ordeni ilə təltif edildi. 1973-cü ildə rəssamın əsərlərindən birinə dövlət mükafatı verildi. Yaratdığı gözəl əsərləri ilə Azərbaycan mədəniyyətini və incəsənətini dünyaya tanıdan S.Bəhlulzadə vəfat etdikdən sonra MK bürosu 1977-ci il aprel ayının 19-da keçirilən iclasında onun xatirəsini əbədiləşdirmək haqqında qərar qəbul etdi. Qərara əsasən, Bakı şəhərində Vaqif küçəsində və Əmircan qəsəbəsində daim fəaliyyətdə olan ekspozisiya yaradıldı, yaşadığı evə xatirə lövhəsi vuruldu, küçələrdən birinə adı verildi.

Heydər Əliyev digər rəssamlara da qayğı göstərirdi. Azərbaycan KP MK bürosunun 1972-ci il 24 noyabr tarixli qərarı ilə T.T.Salahova SSRİ Xalq Rəssamı fəxri adı verilməsi barədə Sov. İKP MK-ya ünvanlanan rəsmi müraciəti Heydər Əliyev imzaladı və istəyinə nail oldu. Heydər Əliyev görkəmli karikaturaçı rəssam Əzim Əzimzadənin anadan olmasının 100 illiyinin keçirilməsi barədə göstəriş verdi və tədbirlər yüksək səviyyədə keçirildi.

Azərbaycan rəhbəri, eyni zamanda, tanınmış rəssamlar M.Abdullayevə, T.Nərimanbəyova, M.Rəhmanzadəyə və onlarla başqalarına qayğı və diqqət göstərirdi. Azərbaycan rəssamlarına hörmət və ehtiram əlaməti olaraq Heydər Əliyev onların qurultaylarında iştirak edir, ünsiyyət qurur, problemlərini öyrənir və çox vaxt həmin problemləri yerindəcə həll edirdi. 1982-ci ildə keçirilən Azərbaycan rəssamlarının IX qurultayında Heydər Əliyevin iştirakı rəssamlıq sənətinə qayğısının nümunəsi idi.

Heydər Əliyev Azərbaycan rəssamlıq sənətini tanıtmaq, inkişaf etdirmək və əlaqələrini genişləndirmək məqsədilə ölkə rəssamlarının toplantılarını imkan yarandıqda Bakıda keçirirdi. Məsələn, 1981-ci ildə SSRİ Rəssamlıq Akademiyasının qurultayı Moskvada deyil, Bakıda keçirildi. Heydər Əliyev qurultay nümayəndələri qarşısında parlaq nitq söylədi. Bu nitq onun rəssamlıq sənətinin mövcud vəziyyətini, inkişaf yollarını dərindən bildiyini göstərirdi. Heç əbəs deyil ki, bir müddət sonra Heydər Əliyev Moskvada olarkən, SSRİ Memarlar İttifaqının sədri ondan xahiş etmişdi ki, memarların da qurultayında iştirak edib nitq söyləsin.

Heydər Əliyev incəsənət sahəsində kadrlar hazırlayan ali və orta ixtisas məktəblərinin fəaliyyətinə xüsusi diqqət yetirir, onların maddi-texniki bazasını gücləndirir, qədim el sənətlərini bərpa və inkişaf etdirmək üçün mütəxəssis hazırlığına ciddi fikir verirdi. Onun, bilavasitə göstərişi ilə Azərbaycan Dövlət İncəsənət İnstitutunda bədii parça, xalçaçılıq, teatr-dekorativ sənət sahələrində mütəxəssislər və sənətşünaslar hazırlayan şöbələr açıldı. Heydər Əliyevin bu sahədəki fəaliyyəti qətiyyətli, prinsipial və ardıcıl idi. Məsələn, 1977-ci il iyun ayının 6-da MK bürosunun iclasında M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun işində ciddi nöqsanlar haqqında məsələ müzakirə edilərək, müvafiq qərar qəbul edildi. Qərardan sonra institutun fəaliyyəti yaxşılaşdırıldı, nöqsanlar düzəldildi, kadr hazırlığı gücləndirildi.

Heydər Əliyevin rəhbərliyi altında MK bürosu 1980-ci il yanvar ayının 25-də Ə.Əzimzadə adına Dövlət Rəssamlıq Məktəbinin 60 illiyinin qeyd olunması haqqında qərar qəbul etdi. Qərar yerinə yetirildi, məktəbin maddi-texniki bazası gücləndirildi, rəssamların iş şəraiti yaxşılaşdırıldı. Bundan sonra respublikanın orta məktəblərində rəssamlığa olan maraq daha da artdı. Moskvada işlərkən də Heydər Əliyev Azərbaycan incəsənətinə olan diqqət və qayğısını əsirgəmirdi. O, görkəmli azərbaycanlı incəsənət xadimlərini qəbul edir, onlara qayğı göstərir, problemlərini həll edir, tövsiyələrini verir, daha gözəl əsərlər yaratmağa ruhlandırırdı.

Beləliklə, Ulu Öndər milli incəsənətin bütün sahələrinin, o cümlədən, memarlıq və rəssamlığın inkişafına qayğı ilə yanaşır, onun dirçəldilməsi və tərəqqisinin xalqın milli-mənəvi yüksəlişinə təsir edən əsas amil hesab edirdi".

AMEA-nın müxbir üzvü Musa Qasımlının ibarələri ilə desək, onu qeyd etmək olar ki: "Azərbaycan rəhbərinin incəsənətə qayğısı bir neçə istiqamətdə həyata keçirilirdi: incəsənət xadimlərinin yubileylərini keçirir, dövlətin orden və medalları ilə təltif olunmalarına nail olur, xatirələrini əbədiləşdirir, musiqi ocaqlarının yubileylərini qeyd edir, bəstəkarların qurultaylarında iştirak edərək nitq söyləyir, respublikanın partiya və dövlət adamlarını klassik Azərbaycan musiqisini dinləməyə çağırır, gənc istedadların üzə çıxarılmasından ötrü festivallar keçirir, Azərbaycan musiqisinin problemləri barədə mətbuatda geniş müzakirələr açdırır, aşıq musiqisini təbliğ edir və tanınmış aşıqların yubileylərini keçirir, milli musiqi mədəniyyətinin ölkə daxilində və xaricdə tanınması üçün səylər göstərirdi. Məhz Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan incəsənəti respublikanın və ölkənin hüdudlarını aşaraq, dünyada daha geniş tanınmağa başladı.

Heydər Əliyev ziyalılarla söhbət edər, onların düşüncələrini, xalqın istəklərini öyrənər, suallar verər, sonra isə təhlil edərək təkliflərini irəli sürər, real olaraq həyata keçirərdi.

Xarakterinə görə yaradıcı, qurucu və birləşdirici şəxsiyyət olan Heydər Əliyev milli incəsənətin inkişaf etdirilməsindən ötrü bəstəkarlar arasında normal yaradıcılıq mühitinin formalaşmasına çalışırdı. O, hələ ötən əsrin 20-30-cu illərindən Sovet orqanlarının bəstəkarlar arasında yaratdığı intriqalar mühitini aradan qaldırırdı".

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

səs
Son səhifə 26 oktyabr



## İsti su içmək arıqladırmı?

Sağlam həyat ən lazımlı ehtiyaclarımızın başında gələn suyun zəifləməyə təsiri ilə bilinir. Ancaq edilən araşdırmalar nəticəsində isti suyun soyuq suya görə daha çox kilo verdirdiyi təsdiq edilmişdir. Günə bir stəkan isti su ilə başlamaq maddələr mübadilənizi sürətlənməsini təmin edər sürətli kilo verməniz kömək çi olacaq. Gün içərisində istehlak etdiyiniz suyun içərisinə bir neçə damla limon suyu əlavə edərək isti suyun təsirini daha da artıra bilərsiniz.

**İsti su içərək qısa müddətdə kilolardan xilas ola bilərsiniz!**

Maddələr mübadiləsini daha sürətli işini təmin edərək regional yağların əriməsini asanlaşdıran isti su xüsusilə həddindən artıq iştahı olanların pəhriz etmələrini asanlaşdırır. İştahı bağlayaraq uzun müddət toxluq hissi verən isti su eyni zamanda bədəndə yağ yığılmasına mane olar və selülit meydana gəlməsinin qarşısını alar. Sağlam həyatın bir parçası olan su qan dövranını sürətləndirər və bədən istiliyini tarazlıqda tutar. Dietlə birlikdə idman edən kəslərin bədən istiliklərini qorumaları olduqca əhəmiyyətlidir. Bədən istiliyində yaşanan ani dəyişmələr kilo verməniz mane olar. Bu səbəblə uzun müddət bədən istiliyini tarazlıqda tutan isti su ilə bədəndən toksinlərin atılmasını asanca təmin edə bilərsiniz. Həzm sisteminin təşkili yenilən qidaların sürətli bir şəkildə həzm edilməsinə və kalori yandırma da köməkçi olur. Qastrit və reflü meydana gəlməsinin qarşısını alar. Qana sürətli bir şəkildə qarışan isti su pəhriz edərkən gün içində özünüzü halsız hiss etmənizə mane olar. Diet edənlərin enerji itirməsini önləyərək adamın özünü dinc hiss etməsini təmin edər. Yatmazdan əvvəl içilən bir stəkan isti su əzələləri boşaldaraq daxili orqanların nizamlı işləməyinə köməkçi olur. Bu da sizin daha dərin bir yuxuya getməyinizi asanlaşdırır. Səhərlər içilən isti su isə bədəndən toksinlərin atılmasını sürətləndirər. Həm də qəbizliyi və şiş meydana gəlməsinə mane olar. Beləcə qısa müddətdə çoxluqlardan xilas ola bilərsiniz.


## ELAN

**"Bakı Ayaqqabı" ATSC-nin səhmdarlarının nəzərinə!**
**6 dekabr 2017-ci il tarixində saat 11-00-da səhmdarların növbədənkənar ümumi iclası keçiriləcəkdir.**
**İclasın gündəliyi:**
**Səhmdar cəmiyyətin ləğvi.**
**Ünvan: Az-1029. Bakı ş. 8-ci Köndələn küçəsi -1**
**Cəmiyyətin inzibati binasında**
**Tel. 514-89-66; 514-89-56**
**ATSC sədri Babayev R.Q.**

x x x

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsil, psixoloji xidmət korreksiyaedici təlim fakültəsinin III kurs tələbəsi Ağazadə Fazilə Aslan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

x x x

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə II kurs tələbəsi Maqomedova Saida Ramazan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**


## Azərbaycanın iki boksçusu Avropa çempionatının yarımfinalına yüksəlib




Türkiyənin Antalya şəhərində gənc boksçular arasında keçirilən Avropa birinciliyində dörddəbir final mərhələsinə start verilib. Mərhələnin ilk günündə Azərbaycan millisinin üç üzvü rinqə çıxıb. Onlardan ikisi yarımfinala yüksəlməklə ən azı bürünc medalı da təmin ediblər. Azərbaycan Boks Federasiyasından AZƏRTAC-a bildiriblər ki, 81 kiloqram çəki dərəcəsində gücünü yoxlayan Surət Qarayev dörddəbir finalda Konrad Kajmarkeviçlə (Polşa) döyüşüb. Görüş boksçumuzun 5:0 hesablı qələbəsi ilə yekunlaşıb. S.Qarayev yarımfinalda rusiyalı Ruslan Kolesnikovla qüvvəsini sınayacaq.

Yığmamızın ən ağır çəkili boksçusu Məhəmməd Abdullayev (91 kq-dan yuxarı) də ikinci qarşılaşmasını xeyrinə bitirib. O, dörddəbir finalda rumıniyalı Emanuel Mikanı mübarizədən kənarlaşdırıb. M.Abdullayev ilk döyüşündə olduğu kimi bu dəfə də nokautla qələbə qazanıb. Təmsilçimiz final üçün xorvatiyalı Yosip Biletiçlə üzüzə gələcək. Nicat Həsənov dörddəbir final səddini keçə bilməyib. O, 69 kiloqram çəki dərəcəsində yarışan həmyerlimiz Qabriel Dossenə (İrlandiya) 0:5 hesabı ilə məğlub olub. Oktyabrın 25-də başa çatacaq dörddəbir finalda daha dörd boksçumuz mübarizə aparacaq. Yarımfinal mərhələsinin döyüşləri oktyabrın 27-də olacaq.

## Riçard Almeyda Braziliya mətbuatına müsahibə verib


Esportes
Richard brilha no Azerbaijão
ASSINE O DIÁRIO

Futbol üzrə Azərbaycan milli komandasının və "Qarabağ" klubunun yarımmüdafiəçisi əslən braziliyalı Riçard Almeyda ölkəsinin "Diario do Grande ABC" nəşrinə müsahibə verib. "Riçard Azərbaycanda parlayır" sərlövhəli yazıda müəllif Anderson Fattori futbolçunun karyerası haqqında məlumat verib. Onun 2012-ci ildən bəri "Qarabağ" klubunda oynadığı, 2016-cı ilin sonundan etibarən Azərbaycan millisinin üzvü olduğu xatırlanır. R.Almeyda müsahibəsində Azərbaycanda ona böyük hörmət və diqqət göstərildiyini, xalqımızın qonaqpərvər olduğunu, ölkəmizdə özünü xoşbəxt hiss etdiyini deyib.

## Cüdoçularımız "Böyük Dəbilqə" turnirinə qatılacaqlar




Oktyabrın 27-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Abu-Dabidə cüdo üzrə "Böyük Dəbilqə" beynəlxalq turniri start götürəcək. Üç gün davam edəcək yarışda Azərbaycan milli komandası 11 idmançı ilə təmsil olunacaq. Baş məşqçi Fərhad Məmmədov milli komandamızın heyətinə Vüqar Şirinli (60 kq), Nicat Şıxəlizadə, İlkin Babazadə (hər iksi 66 kq), Rüstəm Orucov (73 kq), Naim Hüseynov (81 kq), Məmmədəli Mehdiyev (90 kq), Elxan Məmmədov (100 kq), Uşanqi Kokauri (+100 kq), Aişə Qurbanlı (48 kq), Nəzakət Əzizova (57 kq) və İrina Kindzerskanı cəlb edib.

## "Kərim Benzemadan çox məmnunuq"



"Real"ın prezidenti Florentino Peres açıqlama verib. SİA-nın məlumatına görə, "kral klubu"nun rəhbəri "Tottenhem"in forvardı Harri Keyn barədə danışıb. O, adı Madrid klubu ilə hallanan ingilis futbolçunun transfer qiyməti barədə söz açıb: "Keyn üçün "Tottenhem"dən transfer qiyməti soruşmadım, çünki 250 milyon avro tələb edə bilərdilər. Biz hazırda Kərim Benzemadan çox məmnunuq". Qeyd edək ki, 24 yaşlı hücumçu 2009-cu ildən "Tottenhem"in əsas komandasında çıxış edir. London klubu Keyni 4 dəfə icarəyə də verib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

***Buraxılışa məsul: Mətləb Salahov***

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**